Круг как символ пространства получил особое распространение в древнейших тотемических обрядовых действиях. Построение в форме круга являлось важным магическим условием совершения ритуала еще до формирования солярного культа плодородия.

Лечебное воздействие хороводных танцев древнего человека, по мнению ученых, заключалось в том, что синхронное воспроизведение ритмических телодвижений позволяло упорядочить энергию каждого индивидуума и, одновременно, создать новую коллективную силу, которая использовалась как эффективное средство психотерапии. Для заболеваний нервно-психического склада это средство выполняло важную функцию в жизни общины. Общинные лечебные танцы могли длиться 3-4 месяца, в течение которых вся деревня словно существовала в особом «терапевтическом режиме». Наделенный способностями к внушению лекарь направлял коллективную силу на избавление от недуга, которым страдал пациент.

Любые средства в обрядовом действии служили приемами, которые заставляли работать организм в определенном ритме и приводили его в такое состояние, когда одна психофизическая сила оказывала влияние на любую другую энергетическую систему, вызывая желаемый результат. Важнейшей качественной стороной обряда была синкретичность, которая означала системное единство различных видов искусст-

ва. Потому обрядовые хороводы с ритмическим песенным сопровождением оказывали целостное, интегрирующее воздействие на личность.

В этом разделе отмечается, что все богатство и стереотипность интонационных формул включено в знаково-символическую реальность, окружающую человека на всех этапах его жизни. Разнообразием песен и танцев отличается проведение свадебного обряда в Азербайджане.

Репертуар свадебного обряда включал в себя весь спектр жанров фольклора, начиная от обрядовых, лирических песен и заканчивая застольными. В текстах свадебных песен формировалось особое отношение к красоте звучащего голоса, поэтическому наполнению музыкального содержания. Производящиеся на свадьбе действия отличались особой формой произнесения речи и поведения. Обращение человека к системе ценностей традиционной культуры способствовало обретению внутренней опоры и осознанию связи с предшествующими поколениями.

Анализируется и материнский фольклор. Так, обширный пласт азербайджанкой народной культуры ориентирован на воспитание и здоровое психофизическое развитие детей. К детскому фольклору относятся колыбельные «лайлай», игровые «охшама» и «беслеме», а также бытовые песни, связанные с природой и животным миром. Общение малыша с взрослыми оказывает влияние на его психическое и физическое развитие, эмоциональное благополучие. Колыбельные – это первые песни, с которыми встречается ребенок в своей жизни. Колыбельная песня связана с мотивом качания, ее появление обусловлено соучастием матери при переходе ребенка в мир сна. Все музыкальные средства колыбельной подчинены тому, чтобы успокоить и усыпить малыша, снять его эмоциональное напряжение, выровнить дыхание и ритм сердца.

Колыбельные напеваются вполголоса, монотонно, так как само исполнение должно убаюкать малыша. Не понимая слов, младенец на первых этапах своей жизни различает только акустические свойства звука – тембр, динамику, ритм, интонацию голоса. Напев колыбельной в данном случае подобен гипнозу, а наличие в нем монотонных повторяющихся ячеек производит впечатление «маятника».

В процессе полевых исследований нами были сделаны записи азербайджанского детского фольклора, среди которых встречается мелодия колыбельной песни. Ее мелодическая структура имеет несколько

иной характер, в сравнении с анализируемыми выше. Последование звуков образует трихорд, состоящий из нисходящей большой секунды и малой терции. Характерной чертой данного напева является контрастно-регистровое сопоставление двух звуковых уровней, которое в сочетании с пунктирным рисунком создает иллюзию покачивания люльки. Колыбельная песня сопоставляется в представленном примере с напевом шаманских камланий. Идентичность очертаний двух записей выражена сходством пунктирной ритмической стопы, нисходящей мелодической интонацией, направленной к заключительному устою.

Будучи принадлежностью освоенного человеком звукового пространства, архетипы интонирования трактуются нами как явление сакральное, магическое, которое способно приобретать защитные, продуцирующие и лечебно-профилактические функции в зависимости от контекста. Ритуальную значимость в азербайджанской этнической культуре имеют рассмотренные в этом разделе интонационные модели призыва и прославления, плача и мольбы, монотонного заклинания и кругового «вращения».

**В III главе - «Связи музыки и медицины как культурно-типологическое явление»** рассмотрены некоторые теоретические основания, позволяющие рассматривать эту тему в культурно-типологическом плане. В **3.1. «Этнокультурные основания связей музыки и медицины в контексте письменной культуры»** прежде всего, приводятся некоторые примеры функционирования проблем связей музыки и медицины в контексте письменной культуры средневекового Азербайджана.

Письменную культуру этого периода отличали определенные модели универсального, энциклопедического знания. Достаточно сказать, что совершенство музыкального образования опиралось на глубокое изучение музыкальной науки, исполнительства, музыкально-поэтических форм. Средневековые трактаты заключали в себе философскую и художественную концепцию своей эпохи. Данные труды средневековой письменности являются не только источниками, исторически характеризующими эпоху. В трактатах отразились основы взаимосвязей разных наук и областей знания. Интересную информацию о связи музыки и медицины мы находим в рукописях средневековых авторов.

Познавательная деятельность ученых опиралась на определенный состав дисциплин, куда входили, в том числе музыка и медицина, кото-

рые ставятся в единый проблемный аспект. Этот аспект отличается целостностью, взаимокорреляцией своих основных научных детерминантов. Можно говорить об определенном методологическом синтезе, осуществленном на сопоставительном анализе музыки и медицины.

Надо сказать, что систематический параллелизм коррелятов музыки и медицины, функционирующий в трактатах средневековых авторов носил закономерный, целесообразный характер. Последнее обусловлено спецификой контекста культуры средневекового периода истории Азербайджана. В целом, чудодейственная сила пения, музыки проявляла себя во многих областях жизни средневекового общества.

Нами особо подчеркнуто, что истоки практики лечения болезней музыкой, по мнению комментаторов и исследователей средневековых трактатов по музыке исходят от основ мифологического и этнокультурного мышления.

В процессе нашего аналитического исследования мы приходим к мысли о том, что в основе лечебной деятельности в контексте этнокультуры и медицины более позднего периода истории Азербайджана – средневекового периода – лежали идентичные представления о двойственности сознания, об особых связях видимого и невидимого мира. Так, в магической деятельности это проявилось в сакральной трактовке музыкального начала, в переплетении бытийности и мистичности. В трудах средневековых энциклопедистов и врачей двойственность сознания функционировала как корреляция мысли и звука в рамках космологических представлений.

В средневековых трактатах получила обоснование музыкально-космогоническая теория. Ее правомерность была обусловлена тем, что такие теории были известны в греческой, шумеро-вавилонской, египетской, индийской и китайской культурах. Многие из арабо-мусульманских авторов опирались в своих трактатах на теорию небесной музыки Пифагора.

Вне корреляции целостной структуры этнокультуры, с контекстным анализом средневекового периода истории Азербайджана невозможно понять суть, специфику лечебного воздействия музыки на человеческий организм. Поэтому мы остановились на следующих аспектах исследования.

Точное понимание лечебных основ музыки, заключается в следующем:

1. Позитивная настроенность, оберегающая от такой болезни как депрессия;

2. Положительные воспитательные функции музыки, что также влияет на здоровье человека;

3. Эмоциональная уравновешенность, противоположная эмоциональной лабильности;

4. Духовно-нравственная чистота, предполагающаяздоровое гармоничное развитие человека.

В свете сказанного была рассмотрена известная теория о четырех первоэлементах, которая олицетворяла собой не только весь микромир человека средневековой эпохи, но и являлась яркой демонстрацией связей с этнокультурой. Сюда же входили и первоосновы звуковых представлений, первооснова лада, формы, ритма, соответствующие эмоциям человека и его органической, телесной, физиологической основе. В контексте азербайджанской культуры эти соответствия были фундаментальными, и нашли отражение в более поздних трудах азербайджанских ученых.

Использование музыки в лечении заболеваний является генетически обусловленным. Говоря о письменной культуре, подчеркнем, что общие типологические, универсальные, закономерности исторического развития Ближнего и Среднего Востока в каждом регионе приобретали свои специфические особенности. В азербайджанской культуре это было обусловлено огромным влиянием этнокультуры.

В этом разделе исследуются и этногенетические основания суфизма. Так, приводится параллель между шаманами и суфиями. Именно при помощи музыки и шаманы, и суфии входили в состоянии экстаза, который являлся одним из слагаемых, вкупе с музыкой, лечебным средством во врачевании людей.

В музыкальном востоковедения проведена четкая линия преемственности от пения шаманов к «громким зикрам» суфиев, в частности, чор-зарба, и далее, к профессиональной музыке устной традиции в искусстве средневекового макамата. Интересно, что суфии здоровье и болезнь сравнивали с музыкой. Так, суть сравнения заключалась в понимании здоровья как синтеза гармоничных звуков, вибрирующих в теле человека. Именно гармоничный, верный тон позволяет человеку сохранять здоровье. Здоровье сравнивалось с хорошо настроенными струнами инструмента. Животворным суфии считали правильный ритм, движение.

Суггестивная сила ладоинтонационной формульности ярко проявляла себя и в эпоху средневековья, в частности известны формулы и из суфийской практики. Например, существовали известные формулы суфийского скандирования – «як зарб», «ду зарб», «се зарб», «чор зарб».

Раздел **3.2. «Особенности связей музыки и медицины в истории азербайджанской культуры»** носит итоговый характер. Сравниваются содержательные модели этнокультуры, атрибутика и духовный смысл взаимосвязей музыки и медицины в истории Азербайджана, подчеркивается идентичность элементов.

Семантическая функция в музыкальном воздействии проявляет себя через особенности музыкального языка. Существуют музыкально-выразительные средства, которые имеют ярко выраженную семантику. Формульный уровень этих средств, с древнейшего периода истории человечества имел свойства непосредственного воздействия. Эти средства были дифференцированы в связи с их прикладными функциями. Так, лечебные свойства музыки непосредственно связаны не только со спецификой музыки как особого языка культуры, но и со свойствами восприятия в том, или ином контексте.

Лечебные свойства музыки базируются, прежде всего, на определенных коммуникативных приемах. Последние, непосредственно связаны с выразительным значением музыкально-выразительных средств. В этой связи подчеркнута роль музыкальной символики. Музыкальная символика приобретает лечебные свойства в условиях конкретного ситуационного «поля». В этом смысле сила и яркость лечебного воздействия музыки на человека непосредственно связана с особым качеством и особенностями музыки. Внушаемость определенных параметров через музыку стимулируется целым комплексом средств. Не случайно, в современной медицине, в практике лечения человека звуком выработаны специальные приемы воздействия. Например:

1. использование известных музыкальных семантически значимых формул;
2. опора на определенные модели смен динамики и статики;
3. расстановка логических акцентов, действующих на уровне мифологического подсознания;
4. обусловленность лечения знанием магических ритуалов;
5. определенная система загрузки восприятия и снятия напряжения.

Эстетическая и лечебная функции музыки тесно взаимосвязаны друг с другом. Иерархичность эстетических компонентов играет здесь наиболее важную роль.

Моделирование важных психологических оснований, воздействующих на человека, лежит в сфере музыкальной выразительности праформул музыкального языка. Существует система клише, формул, стереотипов, репрезентирующих те или иные эмоциональные состояния человека, ибо между звуком и сознанием находится регулятор, ориентирующий те или иные векторы подсознания. Музыкально-историческая обусловленность деятельности врачевателей в этнокультурной среде однозначна. Ответ на вопрос, из каких коммуникатов состоит эта деятельность, и в какой степени она влияет на более поздние периоды истории, вносит ясность не только в те действия, которые имеют лечебное значение и влияние, но аргументируют преемственность традиций, оцениваемых как национально характерные приоритеты.

Многочисленные факты истории культуры Азербайджана аргументируют наши позиции о генетической связи этнокультурных представлений с представлениями средневекового периода истории Азербайджана. Так, лечение музыкой сопровождается созданием определенного ассоциативного «поля», куда включаются природные и жизненные ситуации, образы, схемы поведения.

Именно в таком континууме сосредоточена двоичность сознания, которое раскрыто как связь видимого и невидимого. Последнее является основой лечебной деятельности в этнокультуре. И действительно, на ранних этапах истории человечества, в древнем мире болезнь ассоциировалось, прежде всего, с вселением в человека злых духов. А средством лечения служила магия, магические заклинания, где немаловажную роль играла музыка.

Детерминанты лечения музыкой в этнокультуре чаще всего связаны с повышенно активным режимом воздействия. Так, в обрядовой практике для врачевания для изгнания «злых духов» требовалась активизация восприятия. Последнее достигалось набором и использованием определенных музыкально-выразительных средств. В свою очередь и средневековые концепции о закономерностях художественного воздействия музыки, детерминанты этой концепции позволяют констатировать, что, как и прочие, лечебные свойства музыки опираются на знаковые принципы классификации музыки. Например:

1. материально-конструктивные свойства музыки;

2. характер значений музыкальных знаков;

3. особые типы связи, корреляции музыкальных знаков и их значений;

4. прикладная сфера музыки.

Обратим внимание на идентичность подходов с этнокультурными представлениями. Здесь подчеркнем, что знание и опора на основы миропредставления этнокультуры, своеобразная «философия» стали и основой преемственности лечебного процесса в средневековье. Именно в силу культурно-типологических связей мы можем утверждать, что приоритеты магического лечения сохранялись и на более поздних этапах истории Азербайджана.

В этой связи мы можем смело говорить об ассоциативной природе архетипов, воспроизводимой на разных этапах истории Азербайджана, ибо со временем, в процессе исторической шлифовки, архетипы превращались в символы, значимые типологии, обобщающие исторический опыт. Система символов каждого народа являлась основанием миропредставления того или иного народа..

Музыкальная речь народных лекарей основана на известных магических генотипах, имеющих четкие слуховые ассоциации. Музыкальные модели драматургически располагаются таким образом, чтобы иметь максимальное влияние на слушателей. Соответственно, и в более поздний исторический период, лечебные процессы, производящиеся с помощью музыки, могут возыметь действие только в случае определенной корреляции музыки и лечебных действий уже сформированных в народной культуре. Безусловно, что в контексте этнокультуры наиболее «внятным» для членов этнического коллектива является раннефольклорное интонирование. Ибо раннефольклорное интонирование, помимо прочего, заключает в себя определенные сигналы, хорошо известные в данной среде.

Последнее хранится в памяти народа веками. Именно поэтому подчеркнем не только существенное лечебное значение музыки, но и связь особенностей корреляции музыки и медицины на разных этапах истории культуры.

В заключении формулируются основные выводы диссертации.

**Основное содержание работы и выводы отражены в следующих публикациях.**

1. О некоторых аспектах лечебного воздействия музыки в истории культуры Азербайджана.// “Мир Культуры”, научно-теоретический сборник, Азербайджанский Государственный Университет Культуры и Искусства, XXVIII выпуск, Баку, 2014, с.104-110

2. Musiqi və tibb əlaqələrin öyrənilməsinə dair.//“История архитектуры, градостроительства и реставрации”. Сборник научных трудов, № 1(9), Баку, 2015 Səh. 186-190

3. Об универсалиях связи музыки и медицины в историческом пространстве культур. “Поиск”, Научный журнал-приложение Международного научно-педагогического журнала “Высшая школа Казахстана”, №4/2015, с. 114-118

4. О выразительности ритма в контексте этнокультуры.// “Проблемы изучения музыкальной культуры тюркских народов”, Материалы XIV международной научно-практической конференции, Баку, 2015, с.25-27

5. О специфики лечебной магии в этнокультуре Азербайджана.// Материалы II Международной научно-практической конференции, Пятигорск, 2015 , с. 250-253

6. Детерминанты связей музыки и медицины в этнокультуре азербайджанского народа.//“Harmony”, международный музыкальный культурологический журнал, №14/2015 http://harmony.musigi-dunya.az

7. Об универсалиях связи музыки и медицины в историческом пространстве культуры.//“Ученые записки" №20, Азербайджанский Государственный Университет Культуры и Искусства, Баку, 2015, с.115-120.

8. О связях музыки и медицины в контексте средневековой культуры.//“Musiqi dünyası”, Beynəlxalq Elmi musiqi jurnalı №2, 2016, с.29-41

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**AZƏR FİRUDİN OĞLU ŞAHBAZOV**

# MUSİQİ VƏ TİBB ƏLAQƏLƏRİNİN AZƏRBAYCAN MUSİQİ FOLKLORU ƏSASINDA ÖYRƏNİLMƏ ASPEKTLƏRİ

**6213.01 – Musiqi sənəti**

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2016**

Dissertasiya işi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Musiqi tarixi və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** AMEA-nın müxbir üzvi, sənətşünaslıq üzrə elmlər doktoru, professor
**Rəna Azər qızı Məmmədova**

**Rəsmi opponentlər:** sənətşünaslıq üzrə elmlər doktoru, professor
**Gülzar Rafiq qızı Mahmudova**

sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Kəmalə Veys qızı Ələsgərli**

**Aparıcı təşkilat:** **Azərbaycan Milli Konservatoriyasının "Milli musiqinin tarixi və nəzəriyyəsi" kafedrası**

Müdafiə __ sentyabr 2016-cı ildə saat 12:00-da Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat ____ avqust 2016-cı ildə göndərilmişdir.

Dissertasiya şurasının elmi katibi:
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent **H.V.Məmmədova**

## İŞİN ÜMUMİ XASİYYƏTNAMƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycan elm və mədəniyyətinin çiçəklənməsi müasir humanitar elmində musiqi və tibb əlaqələri kimi aktual bir problemə müraciətlə nəticələnmişdir. Musiqi və tibb - mədəniyyətin mühüm tərkib hissələri olub, sivilizasiya sistemini formalaşdırmışdır və heç şübhəsiz, "yarandığı" gündən etibarən insanı müşayiət etmişdir.

Müasir humanitar elmdə musiqi və tibb əlaqələrinin çoxaspektli problemi mühüm əhəmiyyət kəsb etməkdədir. Bu, bir sıra faktorlarla izah olunur.

Azərbaycan müstəqillik əldə etdikdən sonra cəmiyyətin bütün sahələri xüsusi və müstəqil status əldə etdi. Məsələn, zəngin Azərbaycan bədii mədəniyyətinin dərin qatlarının öyrənilməsi humanitar elmin ən əhəmiyyətli vəzifələrindən birinə çevrildi. Etnogenez, tarix, etnoqrafiya, arxeologiya, folklorşünaslıqla yanaşı, Azərbaycan musiqişünaslıq elmində musiqi və tibb əlaqələri kimi bir aspekt meydana çıxdı. Qeyd edək ki, hazırkı problemin öyrənilməsi Azərbaycanın bədii mədəniyyəti, yaradıcılığı və incəsənətinin milli spesifikası kontekstində xüsusi aktuallıq kəsb edir. Azərbaycan xalqının bədii yaddaşı onun təkcə tarixini deyil, eyni zamanda milli psixologiyasının səciyyəvi xüsusiyyətlərini də əks etdirmişdir. Azərbaycan xalqının mənəvi mədəniyyətinin müəyyən edilməsi, onun musiqi və tibb əlaqələrinin möhkəmliyi Azərbaycan musiqi tarixinin səhifələrinə yenidən nəzər yetirib, incələməyə imkan verir.

Azərbaycan incəsənətində milli spesifikanın aktuallaşdırılması inteqrasiyalı tədqiqatlara təkan verir. Bu baxımdan musiqi və tibb əlaqələrinin bədii mədəniyyət kontekstində üstünlük təşkil edən parametrlərinin üzə çıxarılması xüsusi əhəmiyyətə malikdir. Təyinedici prinsiplər burada prioritet təşkil edir.

Azərbaycan mədəniyyəti tarixində musiqinin əhəmiyyəti və onun müalicəvi funksiyalarına spesifik musiqişünaslıq baxışı bizim nöqteyi-nəzərimizi fərqləndirən cəhətdir. Müasir musiqişünaslıq elmində problem mahiyyətli sahə olan Azərbaycan musiqi folkloru əsasında musiqi və tibb əlaqələrinin öyrənilməsi məqsədəuyğunluq əldə edir və ən çətin həll olunan problemləri aktivləşdirir. Bununla bərabər, hazırkı tədqiqat işində kompleksli və kontekstli yanaşmalar aktuallaşdırılıb ki, bu da Azərbaycan bədii mədəniyyəti haqqında elmi təsəvvürləri genişləndirmək və dərinləşdirmək cəhdi ilə şərtləndirilir.

Hazırkı tədqiqatda "tibb" sözü ilə biz xəstəliklərin müalicəsini nəzərdə tuturuq, musiqi burada praktik ölçüdür. Maraqlıdır ki, latın söz birləş-

məsi olan “art medicina” - “müalicəvi sənət” kimi tərcümə olunur. Musiqi terapiyası orqanizmin psixosomatik requlyasiya sistemi kimi insan vücudunun fizioloji xüsusiyyətlərinə dayaqlanır. Biz musiqinin müalicəvi effektini və müalicəvi nəticə imkanlarına malik xüsusiyyətlərinin öyrənilməsini əsas götürmüşük. Sözsüz ki, tibb sahəsində musiqi terapiyasının əhəmiyyətini, funksiyasını, perspektivlərini və səmərəliliyini əsaslandıraraq, onu arqumentləşdirməyə dair çoxsaylı nəzəriyyələr mövcuddur. Bütün bu nəzəriyyələr insan orqanizminin fizioloji xüsusiyyətlərinə əsaslanır. Biz isə hazırkı tədqiqat işində öz qarşımıza konkret musiqi vəzifələri qoymuşuq. Buna görə də bizim mövzumuz musiqili-nəzəri məcrada tədqiq olunmuşdur. Bizim baxış bucağımızda musiqi ifadəliliyinin məna determinantları ortaya qoyulur. Buna uyğun olaraq, Azərbaycan musiqi folklorunun təhlili əsasında musiqinin insan orqanizminə göstərdiyi təsirə dair gerçək nəticələrin əldə olunması üçün imkanlar açılır.

**Dissertasiyanın məqsədi** Azərbaycan xalq musiqi folkloru əsasında musiqi və tibb əlaqələrinin öyrənilməsindən ibarətdir.

**Dissertasiyanın vəzifələrini** aşağıdakılar təşkil edir:

1. Musiqi və tibb əlaqələrinin öyrənilməsi mövzusuna adekvat olan və bizim mövzunu tam şəkildə tədqiq etməyə imkan verən metodologiya yaratmaq;
2. Musiqinin etnomədəni kontekstdə qavranılmasını tədqiq etmək və onun determinant əsaslarını üzə çıxarmaq;
3. Musiqinin insan orqanizminə təsir aspektlərini musiqi ifadə vasitələri nöqteyi-nəzərindən öyrənmək;
4. Türk dünyası məkanında musiqinin müalicəvi imkanlarının etnomədəni paralellərini nəzərdən keçirmək;
5. Musiqi və tibb əlaqələrində musiqi ifadəliliyinin universal əhəmiyyətini göstərmək;
6. Azərbaycan musiqi folklor nümunələrində tətbiqi və suqqestiv funksiyaların bir-biri ilə münasibətinin analitik tipologiyasını vermək;
7. Musiqi və tibb əlaqələrini mədəni-tipoloji hadisə kimi tədqid etmək.

**Tədqiqatın faktik materialı.** Bizim tərəfimizdən kifayət qədər geniş material nəzərdən keçirilmişdir. Bunlardan tədqiqat üçün ən dəyərli və münasib olanlar təhlilə cəlb edilmişdir. Hazırkı materialın öyrənilməsi dissertasiyanın əsas məqsədinə uyğun olaraq real nəticələr və mühüm qənaətlər əldə etməyə imkan vermişdir.

Hazırkı tədqiqat işinin materialını Azərbaycan autentik folkloru, mərasim musiqisi, ana və uşaq folkloru, qədim türk ayinlərinin musiqisi ilə təmsil edilmiş türk bədii mədəniyyətinin musiqi nümunələri təşkil edir.

Tədqiqatın materialı Azərbaycan və xarici ölkə tədqiqatçılarının xalq musiqi mədəniyyəti, video materiallar, eləcə də dissertasiya müəllifinin öz not yazıları və şərhlərindən ibarətdir.

**Dissertasiyanın elmi yeniliyi** ondan ibarətdir ki, bizim tədqiqatın mövzusu – musiqi və tibb əlaqələri Azərbaycan musiqişünaslıq elmi və Azərbaycan etnomədəniyyətində müstəqil tədqiqat obyekti olmamışdır.

Azərbaycan musiqi elmində musiqi və tibb əlaqələrinin öyrənilməsi az tədqiq olunan bir sahədir. Faktoloji material axtarışının çətinliyindən başqa, bu özünü nəzəri ümumiləşdirmələrin kifayət etməməsində də göstərir.

Dissertasiyanın yeniliyi ondan ibarətdir ki, hazırkı tədqiqat işi Azərbaycan musiqi folkloru əsasında musiqi və tibb əlaqələrinin öyrənilməsi baxımdan ilk addımdır. Beləliklə, yeni incəsənət elmi olan etnosənətşünaslıq paradiqması formalaşır və Azərbaycan musiqisinin tədqiqində ilk dəfə tətbiq olunur.

**Dissertasiyanın elmi-təcrüibi əhəmiyyəti.** Azərbaycan xalq musiqisi müxtəlif vektorlu tədqiqat tələb edən xüsusiyyətlərə malikdir. Bu mənada musiqi və tibb əlaqələrinin problemlərinə etnomədəni kontekstdə müraciət olunması xüsusi məna və yüksək təcrübi əhəmiyyət daşıyır.

Musiqinin müalicəvi təsirində musiqi təfəkkürünün dərin qanunauyğunluqları öz əksini tapmışdır. Odur ki, Azərbaycan etnomusiqişünaslığının erkən folklor intonasiyalılığı kimi spesifik bir sahənin öyrənilməsi üçün bizim dissertasiyanın tədqiqat materialından istifadə olunması əlverişlidir.

Bizim tədqiqat işimizin praktiki cəhətdən tətbiqi kifayət qədər genişdir. Məsələn, musiqi və tibb əlaqələrinin təhlilini özündə cəm edən hazırkı dissertasiyada Azərbaycan xalq musiqisinin yeni öyrənilmə aspektlərini stimullaşdıran material təqdim olunmuşdur. Xalq musiqisinin suqqestiv cəhətlərinin öyrənilməsini tövsiyə etmək və xalq onun dinləyicilərə göstərdiyi neyrofizioloji təsirini əks etdirən təhlilə təşəbbüs göstərmək olar. Məsələn, dissertasiya materialından Azərbaycan artterapiya mərkəzlərinin təşkili üzrə layihələr üçün istifadə etmək mümkündür. Hazırkı dissertasiya işindən musiqi və tibb əlaqələrini tədqiq edən humanitar elm sahələrində - sənətşünaslıq, etnologiya, fəlsəfə, tarix kimi sahələrdə istifadəsi faydalı ola bilər.

Bizim dissertasiyanın praktiki əhəmiyyəti həmçinin ondan ibarətdir ki, biz musiqi və tibb əlaqələrinin tədqiq olunması zamanı təkamül

informasiyasının əsas növlərini üzə çıxaran konkret üsullar yaratmışıq, bu isə öz növbəsində Azərbaycan musiqisinin öyrənilməsi üçün zəruridir.

Bununla yanaşı, bizim tədqiqat işimizdə irəli sürülən təhlil metodologiyası analoji elmi araşdırmaların əsasını təşkil edə bilər. Bizim dissertasiya işimizin materialı, analitik aparat, eləcə də tədqiqatın metodologiyasından Bakı Musiqi Akademiyası və Milli Konservatoriyanın "Azərbaycan xalq musiqisi" mühazirə kurslarında və Respublikanın digər ali təhsil ocaqlarının musiqi kafedralarında istifadə etmək olar.

**Dissertasiyanın obyekti** etnomədəniyyət kontekstində musiqi və tibb əlaqələridir.

**Dissertasiyanın predmetini** Azərbaycan musiqi folklorudur.

**Tədqiqatın metod və metodologiya əsası.** Bizim tədqiqat işimiz üçün adekvat elmi yanaşma axtarışları olduqca mürəkkəb idi. Çünki, dissertasiya işində musiqi və tibb əlaqələrinin nəzəri ümumiləşdirmələri və konkret musiqi təhlili ilk dəfə olaraq yerinə yetirilmişdir. Musiqi və tibb arasındakı ümumi əlaqələrin ifadə edilməsi ilk növbədə, metodoloji məsələlərin həllini tələb etmişdir.

Tədqiqatın nəzəri aspekti musiqi və tibb əlaqələrinin inkişaf dinamikasına dayaqlanır. Analitik aspek isə bu əlaqələrin izahedici funksiyasını təmsil edir.

Biz bu fikri əldə rəhbər tutmuşuq ki, mədəniyyət müəyyən semantik təbəqələrdən təşkil olunmuşdur. Onlar öz mənasına görə təbəqələrə ayrılan seqmentlərlə identikdir. Dərin invariantların tamlığı, onların dolğunluğu bəşər mədəniyyətinin bütün tarixi boyu təsvir edilərək, incəsənətin qavranılmasını istiqamətləndirmişdir. Məhz bu səbəbdən, bizim tədqiqatın metodologiyasının yaradılması etnomədəni mühitdə qavrayış spesifikası ilə sıx bağlıdır. Burada metodoloji baza əsasını folklorun ilk çağlarında özünü göstərən intonasiyalılıq təşkil edir.

Dissertasiyada biz kontekstli təhlilə dayaqlanırıq. Kontekstli təhlil hazırkı tədqiqat işində zəruridir, çünki metodoloji olaraq mədəniyyətin tamlığını təsvir edir. Yalnız mədəniyyətin tərkib hissələrinin inteqrasiyası nöqteyi-nəzərindən onun iki fenomeni olan musiqi və tibb arasındakı əlaqənin öyrənilməsi mümkündür.

Bizim fikrimizcə, elmi konsepsiyanın irəli sürülməsi daha məqsədəuyğundur. Bu konsepsiyanın əsasını iki qoldan ibarət ideya təşkil edir: bir tərəfdən, musiqinin müalicəvi təsiri onun xüsusi spesifikliyi ilə bağlıdır, digər tərəfdən isə o, bilavasitə mədəni məkan kontekstinə əsaslanır. Beləliklə, tədqiqatın musiqi və tibb əlaqələrinə dair elmi konsepsiyası elə

qurulur ki, Azərbaycanın mədəniyyət tarixində musiqi və tibb əlaqələrinin öyrənilməsi etnomədəniyyət genezisində cəmləşərək, Azərbaycan musiqisinin milli spesifikasının köklərini üzə çıxarır.

Dissertasiyanın konsepsiyası Azərbaycan musiqişünaslığının metodoloji mövqeyi üzərində qurulmuşdur. Onun əsasını sistemli və tarixi prinsip təşkil edir.

Təhlil zamanı biz Ü.Hacıbəyli, M.S.İsmayılov, Ə.Bədəlbəylinin lad sisteminə dayaqlanırıq. Z.Səfərova, R.Zöhrabov, B.Hüseynli, G.Abdullazadə, S.Abdullayeva, S.Seyidova, T.Məmmədov, E.Babayev, S.Fərhadova, S.Bağırova, Ü.İmanova, R.Məmmədova, J.Qədimova, A.Quliyev, K.Dadaşzadə, S.Tağızadə, F.Xalıqzadə, C.Mahmudova, G.Mahmudova, C.Həsənova və digər Azərbaycan etnomusiqişünaslarının xalq musiqisi üzrə elmi əsərlərinə istinad edirik.

Həmçinin biz B.F.Asafyev, K.V.Kvitka, Y.V.Gippius, V.Belyayev, İ.İ.Zemtsovski, E.Y.Alekseyev, V.Qoşovski kimi alimlərin mühüm elmi tövsiyələrindən bəhrələnmişik.

**Mövzunun elmi işlənmə dərəcəsi.** Elmi ədəbiyyat bizim tərəfimizdən aşağıdakı qaydada dərəcələrə ayrılmışdır:

1. Azərbaycan musiqişünaslarının elmi əsərləri;
2. Rus və sovet musiqişünaslarının elmi əsərləri;
3. tarixi, etnoloji ədəbiyyat;
4. musiqinin qavranılmasına dair ədəbiyyat, musiqinin bir incəsənət sahəsi kimi spesifikası;
5. musiqi terapiyası üzrə ədəbiyyat.

Musiqi və tibb əlaqələri probleminin işlənməsində çağdaş musiqişünasların Azərbaycan musiqisinin tarix və nəzəriyyəsinə dair elmi əsərləri daha çox üstünlük təşkil edir. Sözsüz ki, təqdim olunmuş ədəbiyyat icmalında Azərbaycan tarixinə, maddi mədəniyyətə dair elmi əsərlər özünə yer almışdır.

Bizim dissertasiya işində Azərbaycan aşıqlarının yaradıcılığına həsr olunmuş elmi ədəbiyyat nəzərdən keçirilmişdir. Azərbaycanda aşıq musiqisinin tarixi inkişaf prosesinin öyrənilməsi zamanı biz Ə.Eldarova, T.Məmmədov, K.Dadaşzadə, L.Məlikova-Səyyar, İ.Köçərli, M.Qasımlı və başqa müəlliflərin tədqiqat işlərinə müraciət etmişik.

Azərbaycan humanitar elmində, əsasən də musiqişünaslıqda bizə məlum olan yeganə xüsusi tədqiqat işi türk müəllifi tərəfindən yazılmış və türk mənbələrinə əsaslanan elmi əsərdir. F.S. Ünal, "Musiqinin insana müalicəvi təsiri baxımından tarixi araşdırmalarnın tətqiqi" adlı dissertasiyasında musiqi terapiyasına, onun müxtəlif forma və növlərinə daha çox

diqqət ayrılır. Elmi ədəbiyyat sübut edir ki, bizim tərəfimizdən irəli sürülən dissertasiya işi Azərbaycan etnomədəniyyətində musiqi və tibb əlaqələrinə həsr olunmuş ilk xüsusi elmi işdir.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Musiqi tarixi və nəzəriyyəsi" kafedrasında müzakirə olunaraq bəyənilmişdir. Dissertasiya işinin əsas müddəaları müəllifin elmi məqalələri və məruzələrində öz əksini tapmışdır

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, altı bölmə, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı, not əlavələrindən ibarətdir. İşin ümumi həcmini 196 səhifə təşkil edir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzu seçimi, mövzunun aktuallığı, məqsəd və vəzifələri, elmi yeniliyi əsaslandırılır, işin praktiki əhəmiyyəti, elmi işlənmə dərəcəsi müəyyənləşdirilir.

**I Fəsil - "Azərbaycan xalqının etnomədəniyyətində musiqi və tibb əlaqələrinin öyrənilmə problemləri"** - iki bölmədən ibarətdir. **1.1. "Azərbaycan xalqının etnomədəniyyətində musiqi və tibb əlaqələrinin determinantları"** adlanır. Bu bölmədə qeyd olunur ki, musiqinin insan orqanizminə qanunauyğun təsirini genetik baxımdan izah etmək mümkündür. Məsələn, musiqi qədim zamanlarda sehrli ayinləri müşayiət etmiş, onların ifadəliliyini gücləndirmişdir. Musiqinin şəfalı, bədii gücünə inam bəşər tarixinin qədim dövrlərindən məlumdur.

Hazırkı bölmədə musiqinin etnomədəniyyətdə maddi və bədii fəaliyyət komponentinin tərkib hissəsi kimi qavranılmasına yer ayrılır, onun həm obrazlı, həm də əmək, tətbiqi musiqili-praktiki funksiyaları nəzərdən keçirilir. Musiqi qavrayışının etnomədəni spesifikası etnik kollektiv üzvlərinin müalicəsində böyük rol oynayan bir sıra xüsusiyyətlərə malik olmuşdur. Etnomədəniyyətin musiqi aləmi ilk növbədə, müəyyən "siqnal" sahəsini ifadə etmişdir. Bu kontekstdə etnik kollektiv üçün zəruri proseslər baş vermişdir. Odur ki, musiqi ikili effekt (emosional və müalicəvi) yaratmağa qadir olmuşdur.

Musiqi qavrayışının strukturu bizim tədqiqat işimizdə aşağıdakı dərəcələrə ayrılır: 1. Emosional-psixoloji dərəcə.

Etnomədəni ortamda musiqi qavrayışının emosional-psixoloji dərəcəsi onunla əhəmiyyətlidir ki, burada xüsusi suqqestiv təmayül üstünlük təşkil edir. Belə bir ortamda musiqi insana təsir edərkən tətbiqi və magik

təsəvvürlər şəklində “vasitəçi”liyə malik olur. Məhz etnopsixoloji gerçəklik nöqteyi-nəzərindən insanın əhvalı, davranışı dəyişir, səs dünyasının qavrayışı, buna uyğun olaraq, müalicəvi proses müəyyən funksional əhval-ruhiyyə yaradır.

2. Musiqinin müalicəvi təsir dərəcəsi. Hazırkı dərəcə insan orqanizminə olan konkret differensial reaksiyası ilə fərqlənir və müalicə edən təbibin xüsusi tapşırığından asılı olur. Həm həkim, həm də müalicə alan şəxsin vahid musiqi məkanına köklənməsi, onların musiqiyə identik reaksiyası olduqca vacibdir. Burada paritet üstünlük təşkil edir.

3. Musiqi qavrayışının məzmunlu-assosiativ dərəcəsinin aktivləşdirilməsi. Bu dərəcə etnomədəni kontekstdə musiqi başlanğıcına xas olan funksiyaların ümumiləşdirilməsindən ibarətdir. Burada biz qavrayışın təbiiliyini, musiqinin dərk olunmasında arxaik dominantanın üstünlük təşkil etməsini, psixoloji təmayüllərin əmək və magik-mərasim vektorlarına doğru yön almasını qeyd etməliyik.

Vurğulamaq lazımdır ki, qavrayışın bir neçə təbəqələri vardır. Bunlardan birini üst təbəqə adlandıraq. Bu elə bir fizioloji reaksiyadır ki, dərhal meydana çıxır və nəinki daxili, eyni zamanda xarici təzahürlərlə müəyyən edilir. Bundan başqa, insan orqanizminin sağlamlaşdırılması onun psixikasının dərin qatları ilə bağlıdır. Bu ona əsaslanır ki, insan beyni və orqanizmi, ümumilikdə, qavrayışın daha effektiv parametrlərini mənimsəmək və ona münasibət göstərmək qabiliyyətinə malikdir.

Musiqini düzgün qavrama qabiliyyətinin funksional cəhətdən çevikliyi bir yığın emosional assosiasiyalara təkan verir. Xəstəliklərin müalicəsi zamanı məhz bu müsbət keyfiyyətlər həkim tərəfindən istifadə olunur. Bizim təhlilin əsasını məhz emosional assosiasiyalarla musiqi ifadə vasitələrinin əlaqəsi təşkil edir.

Musiqinin müalicəvi təsirinin bir neçə parametrləri mövcuddur, onlar etnomədəni kontekstdə universal xüsusiyyətlərə malikdir:

- burada birinci yerdə magik qüvvəyə malik müəyyən bir məkan durur. Bu məkanın hüdudları bir qayda olaraq, dəqiq müəyyənləşdirilmişdir;
- ikinci amil - şəfaverici təbibin simasıdır, yəni, bu və ya digər auditoriyaya münasibətdə müəyyən iş aparan insan fiqurudur;
- hazırkı tədqiqat üçün üçüncü, çox vacib amil - musiqi təsirinə malik alətlərdir, buraya həm şəfaverici təbibin səs imkanları, həm də müşayiət edən, eləcə də səs-küy əmələ gətirən alətlər daxildir;
- dördüncü amil - insana müalicəvi təsir göstərən amil olub, təyinedici əhəmiyyət daşıyır. Dəqiq desək, buraya müəyyən semantik musiqi işarələri

daxildir. Onlar spesifik və məqsədyönlü müalicəvi təsirə malikdir. Bu musiqi vasitələri tarixi təcrübə prosesində seçilərək, etnik kollektiv üzvlərinə güclü suqqestiv təsir göstərir;

- beşinci amil - musiqi elementlərinin konkret təsiredici əlaqəsi ilə "magik" məkan hüdudlarında meydana çıxan əlaqənin zəruriliyini dərk etməyi tələb edir. Ayrı cür desək, burada konkret priotetlərə malik olan və şəfaverici təbib ilə auditoriya arasındakı bu və ya digər determinantlara əsaslanan izahedici funksiya qüvvəyə minir.

Bu bölmədə ilkin təsəvvürlərə əsaslanan appesrepsiya qavrayışının, magik müddəaların, musiqi ifadə vasitələrinin rolu vurğulanır. Musiqi simvolikası məhz etnomədəniyyət kontekstində insana müalicəvi təsirə malik olan əsas psixoloji dominanta kimi modelləşdirilir. Yetəri dərəcədə effektli müalicəvi əhəmiyyətə malik olan praformullar, ifadəli sözlər informasiya modellərinin formalaşmasını təmin etmişdir.

Musiqi qavrayışı özündə dörd mühüm tərkib hissəsini kondensasiya edir:

1. Eşidilənlərin emosional şəkildə "oxunması";
2. Səs mətninin və onun sonrakı differensiasiyasının dərk olunması;
3. Hazırkı mətnin tanına bilən və bilinməyən tərkib hissələrinə ayrılması;
4. Dinlənilən materialın assosiativ görünüşü.

Etnomədəni çərçivə daxilində musiqinin bəxş etdiyi ilk emosional təkan artıq müəyyən bir "sahə" əmələ gətirir və musiqinin müalicəvi prosesi onun hüdudlarında mənimsənilməkdə davam edir. Bu halda biz müalicəvi prosesi nəzərdə tuturuq.

İkinci bənd - səs mətninin dərk edilməsi, yəni psixoloji əhəmiyyətə müəyyən köklənmə deməkdir. Biz dərindən əminik ki, qavrayışın məhz bu mərhələsində musiqinin müalicəvi əhəmiyyətinə doğru dönüş baş verir.

Üçüncü bənd - konkret müalicəvi prosesdən ibarətdir. Çünki təhtəlşüur səviyyəsində insan orqanizmi bir qayda olaraq, şəfaverən təbibin suqqestiv istiqamətlərinə adekvat təsir göstərir.

Nəhayət, müalicəvi seans zamanı səslənən musiqinin etnomədəni kontekstdə insan dərdinə şərik olması, onun halına acıması qavrayışın dəyişkənliyi məsələsini aradan qaldırır, bu zaman dəqiq, məqsədyönlü müalicə vektorunu qoruyub saxlayır.

Yuxarıdakı struktur universallığı etnokollektiv kontekstində musiqinin təsir "mexanizmləri"nin kifayət qədər ümumiləşdirilmiş və bununla bərabər, mütəşəkkil dərk olunmasını ifadə edir.

Beləliklə, musiqi və onun pozitiv təsiri insan şüurunda onun varlığının baza strukturları kimi birləşmişdir.

Həmçinin qeyd edək ki, Azərbaycan xalqının etnomədəniyyətində musiqi və tibb əlaqələrinin öyrənilməsi konkret iyerarxiya səviyyələrinə dayaqlanır. Bu, çoxvektorluluğu, mürəkkəbliyi ilə fərqlənir. Bizim tərəfimizdən etnomədəniyyətdə musiqi və tibb əlaqələrinin elə əlaqə determinantları nəzərdən keçirilir ki, onlar hazırkı tədqiqat işinin hüdudlarında xüsusən məqsədəuyğundur.

**1.2. "Türk dünyası məkanında musiqinin müalicəvi imkanlarının etnomədəni paralelləri"** adlı bölmədə vurğulanır ki, Azərbaycan mədəniyyətində musiqi və tibb əlaqələrinə dair təsəvvürlər qədim türk təsəvvürlərinin müqayisə edilməsi və genetik rekonstruksiyası ilə dərinləşdirilir.

Türk mədəni dünyasının bədii prinsiplərinin Azərbaycan etnomədəniyyətinə təsiri yaxşı məlumdur. Sözsüz ki, türk mədəni aləmi polielementli tam bir külldür və özündə müxtəlif regional təzahürlər cəm edir. Türk mədəni aləminin universallığı çox şeydə özünü göstərir. Çünki türk bədii mədəniyyəti etnomədəni ümumiliyə malikdir. Məhz bu səbəbdən, hazırkı kontekstdə mifoloji motivlər, simvollar, metaforalar, mərasim mövzuları, ayin modelləri, arxetipləri yüksək identik işarə statusuna malikdir.

Türk təfəkkür universallığı öz daxilində geniş etnomədəni məkan cəm edən bədii yaradıcılıq təsnifatında əksini tapmışdır. Bizi maraqlandıran universal aspektdə xalq təbabəti türk etnomədəniyyətində bir çox faktorlarla şərtləndirilmişdir, buraya o cümlədən, həyat tərzi, təsərrüfat fəaliyyətinin formaları, adət-ənənələr, ətraf mühitin mənimsənilmə xüsusiyyətləri və s. aiddir. Bu sıraya rəvayət və əfsanələri, inanc və simvolikaları əlavə etmək olar.

Bu bölmədə bizim tərəfimizdən etnoloji təhlilə müraciət olunması təkcə musiqi və tibb əlaqələrinin etnomədəni kontekstdə nəzərdən keçirilməsi ilə yekunlaşmır. Etnoloji təhlilin səmərəliliyi ondadır ki, onun mahiyyətini regionlararası ümumiləşdirmələr təşkil edir. Belə ki, söhbət burada türk mədəniyyətinin xüsusiyyətləri aspektində musiqi və tibb əlaqələrindən gedir. Bu baxımdan əsas diqqət şaman ayinlərinə yönəldilmişdir.

Türk dünyasının əsrlər boyunca davam edən təbabət təcrübəsi şamanlığa dayaqlanır. Şamançılıq haqqında olan mövcud mənbələrdə şamanların məhz müalicə ilə bağlı olması əsas götürülür.

Tədqiqatçıların fikrinə əsasən, şəfaverici şaman ayinlərində musiqi həmin prosesin ayrılmaz tərkib hissəsi olmuşdur. Şamanlar müəyyən informasiya modellərinə malik idilər. Bu modellər insanların psixikasına

güclü təsir göstərirdi. Şamanlar tərəfindən qədimdən bəri tətbiq olunan müəyyən "proqram" konkret auditoriyaya istiqamətlənmişdi. Bu mənada musiqinin kommunikativ funksiyaları dinləyici diqqətinin dinamikləşməsi və aktivləşməsinə "tuşlanaraq", şamanın qarşıya qoyduğu son nəticənin əldə edilməsinə yönəldilirdi.

Şamanların müalicəvi fəaliyyəti ovsunlu-magik məzmunu ilə bərabər, həm də suqqestiya vasitəsi ilə ifadə olunan yaradıcı bir prosesdir. Şamanlar və epik dastan nəqlediciləri arasında ümumi cəhətlərin mövcudluğu təsadüfi deyil. Onların fəaliyyəti qədim mifik obrazlarda ümumiləşdirilmişdir.

Bu bölmədə bizim mövzu üçün mühüm əhəmiyyət kəsb edən şaman və epik dastan ustadları arasında paralellər aparılır.

Müasir epik dastan ustadlarının fikrincə, məhz səs, oxuma, ritm, özünəməxsus reçitativ və s. türkdilli xalqların epik nəğmələrində bir sıra oxşar xüsusiyyətlərə malikdir. Türk xalqlarının genetik musiqi yaddaşı xəstəlikləri sağaltmağa və xüsusi müalicə effekti yaratmaq bacarığına malikdir.

Azərbaycan ərazisində şamanizmə diqqət yönəldilmişdir. Hazırkı bölmədə türk mədəniyyəti kontekstində epik yaradıcılığın şamanlar tərəfindən ardıcıllıq yolu ilə keçməsi, onların arasındakı varislik əlaqələri qeyd olunur. Türk xalqlarının epik yaradıcılığı ilə şaman ayinlərini müqayisə etdikdə, insanların müalicəsində aparıcı rol oynayan müəyyən modellərin identikliyini vurğulamaq zəruridir. Azərbaycan aşıqlarının sintetik yaradıcılığını, mədəniyyət tarixində onların həm də müalicəvi fəaliyyətini xüsusilə qeyd etməliyik.

Dissertasiyada şamanlıqla Azərbaycan aşıqlarının yaradıcılığı arasındakı sıx əlaqəyə dair material təqdim olunur. Məsələn, şaman terminologiyasındakı sözlərin Azərbaycan dili ilə identikliyi diqqəti özünə cəlb edir və bu məqam təhlilə cəlb olunur. Türk dünyasında analoji simvolikaya malik olan totemlər tədqiqat üçün mühüm informasiya mənbəyi olmuşdur. Epik ifaçılığın tərkib hissəsi olan musiqi alətlərinin xüsusiyyətləri nəzərdən keçirilir.

Müğənninin musiqi istedadının identik elementləri nəzərdən keçirilir. Bu elementlərdən xəstəlik, ekstaz dərəcəsinə çatma, ayinə çağırış və s. adını çəkə bilərik. Maraqlıdır ki, dastan söyləyən hekayəçinin sağaltma qabiliyyətinə qədər yüksəlməsi müalicə alan şəxsin xəstəliyi ilə sıx bağlıdır.

Şamanlığın qədim elementlərinin varisi olan Azərbaycan aşıqları arasındakı varislik əlaqələrini nəzərdən keçirərək qeyd edək ki, şaman kimi aşıq da həmçinin, xəstəliklərin yüngülləşdirilməsinə və insanların müalicə edilməsində müəyyən bədii üsullara malik olmuşdur. Aşıqların bu funksi-

yası bizim tərəfimizdən göstərilmişdir. Şamanlığın qalıqlarının aşıq sənətində uzun əsrlər boyunca davam etməsi bizə söyləməyə əsas verir ki, Azərbaycan musiqi tarixində aşıqlar həm də şəfaverici sağaltma qabiliyyətinə, öz fəaliyyətləri ilə müəyyən xəstəlikləri aradan qaldırmağa qadir olmuşlar.

Bizim tədqiq etdiyimiz videomateriallar qəm-kəm ayinləri və aşıq dastanlarının musiqili-ifaçılıq xüsusiyyətləri arasındakı müəyyən və olduqca mühüm paralelləri təsdiqləyir. Burada haray-çağırışların, qafiyəli nəsr fraqmentləri ilə növbələşən nəğmələrin ümumi semantikası da qeyd olunmalıdır. Ümumi ritm və intonasiyaya malik olan melodik formulları həmçinin vurğulamaq lazımdır.

Şamançılıqla Azərbaycan aşıq sənəti arasında daha bir sintetik bağlılıq mövcuddur və bu cəhət ortaq bağlılığa təkraredilməz forma bəxş edir. Söhbət teatrallıqdan gedir. Dastan qəhrəmanına çevrilmək – Azərbaycan aşıqlarının dastan yaradıcılığının parlaq cizgilərindən biridir.

Şamanlar epik dastan söyləyən hekayəçilərin nəğmələrindən və onları müşayiət edən musiqi alətlərindən - məsələn, qopuz, dombra və s. istifadə etmişlər.

A.N.Veselovski, O.Freydenberq, X.Koroğlu kimi alimlərin fikrincə, bədii formaların təkamülü bir tərəfdən, ən sabit və məzmunlu elementlərin qorunması, digər tərəfdən isə şəklini dəyişən mütəhərriklik mərhələlərindən keçmişdir. Müəyyən elementlərin dəyişməzliyi bu və ya digər əsrdəki tarixi situasiya, mədəni tələbat ilə bağlı olmuşdur.

Nəzərdən keçirilən materialın oxşar və fərqli cəhətləri lokal təzahürlərin müxtəlifliyini və tipologiyaların tamlığını sübut edir.

**İkinci fəsil - "Etnomədəniyyət kontekstində erkən folklor intonasiya ifadə imkanlarının şəfaverici əhəmiyyəti"** adlanır. **2.1. "Musiqi və tibb əlaqələrinin müəyyən edilməsində musiqi ifadəliliyinin universallığı"** adına malikdir. Musiqinin müalicəvi dərkinin müəyyən edilməsini musiqi ifadə vasitələrinin konkret təhlili nəticəsində ifadə etmək mümkündür. Dissertasiya işində belə bir sual ortaya qoyulmuşdur: etnomədəni kontekstdə müalicəvi effekt yaradan ən təsirli musiqi ifadə vasitələri hansılardır? Bu ifadə vasitələrinin universallığı fikrini əsas götürək, belə ki, söhbət erkən folklor intonasiyalılığından gedir. Etnomusiqişünaslığın danılmaz həqiqətlərindən birini xatırlayaq - musiqi təfəkkürü əsrlərin dərinliklərinə nə qədər çox uzandıqca, müxtəlif xalqların musiqisindəki ümumi cəhətlər daha çox müşahidə olunur.

Dissertasiyada təhlil olunan musiqi nümunələri türk musiqi dünyasında və Azərbaycan folklorunda insanların müalicəsi məqsədi ilə eyni dərəcədə tətbiq olunan musiqinin müqayisəli təhlili müəyyən tipoloji modellərin dərkini və əhəmiyyətini isbatlayır.

Tədqiqat prosesində aparılan analitik araşdırma zamanı biz musiqi ifadə vasitələrinin insanın psixoemosional vəziyyətinə təsirini göstərmək cəhdini irəli sürmüşük. Yalnız belə bir təhlil zamanı etnomədəniyyət kontekstində musiqinin müalicəvi xüsusiyyətlərinin başlıca səbəblərini müəyyən etmək mümkündür. İnsan orqanizminə suqqestiv təsir göstərən musiqi ifadə vasitələri və buradan irəli gələrək, onların müalicəvi təsirinin nəzəri səbəbləri aşağıdakı parametrlərdə əksini tapır:

1. İlkin musiqi arxetiplərinin suqqestiv əhəmiyyəti onların məna determinantlarından irəli gəlir;
2. Arxetip dərəcələri müəyyən lad özəklərindən təşkil olunur. Bu özəklər onların semantik keyfiyyətlərini formalaşdırır və insan orqanizminə müalicəvi təsiri zamanı mühüm rol oynayır;
3. İntonasiya modellərinin melodik quruluşu konkret etnomədəniyyət kontekstində formalaşır.

Musiqi arxaikası tətbiqi xüsusiyyətə malik olmuş və praktiki məsələləri həll etmişdir, məsələn o, etnik kollektivdə pozitiv, əsasən sağlamlaşdırıcı vektorlara yardım edirdi.

Bundan başqa, xalq musiqisinin məhz müalicəvi xüsusiyyətlərə malik olan xassələri daha çox qorunub, bütöv qalmış və müəyyən basmaqəliblər şəklində mühafizə olunmuşdur. Bu stereotiplər uzun əsrlər boyunca öz xüsusiyyətlərini itirməyərək, həm Azərbaycan xalq musiqisi, həm də tibbi araşdırmalar üçün, o cümlədən musiqi terapiyası üçün informasiya mənbəyinə çevrilmişlər.

Təhlilin məqsədini xalq musiqisinin mühüm determinantlarının, erkən folklor intonasiyalılığının xüsusiyyətlərinin müəyyənləşdirilməsi təşkil edir. Bu xüsusiyyətlər etnomədəniyyətdə mühüm müalicəvi əhəmiyyət daşımışdır. Bu bölmədə sehrli magiya funksiyasını əks etdirən ladintonasiya, ritmik modellər tədqiq olunur. Azərbaycan mərasim musiqisi, uşaq və ana folklorundan bəhs edilir. Qədim zamanlardan bəri insanların müalicəsi üçün məhz bu cür modellərdən istifadə olunmuşdur.

Azərbaycan mərasim ayinlərinin semantik cəhətdən dərin, parlaq tərkib hissələri, "ovsunlu" musiqi formulları sözsüz ki, etnik kollektiv üzvlərinin psixikasına təsir etmişdir, müasir dillə desək, tədricən psixoterapiya təsirinə malik olmuşdur.

Təhlil olunan material özündə bir sıra parametrləri cəm edir:

1. Mərasim, ayin intonasiyalılığının spesifikası, musiqi səsinin semantik emosional-psixoloji "sahə" kimi tətbiq olunması;
2. Musiqi ifadəliliyinin tətbiqi funksiyasının ön plana çəkilməsi;
3. Musiqinin müalicəvi korrelyatlarını nizama salan komplekslərin identifikasiyası;
4. Dinləyiciləri müəyyən əhval-ruhiyyəyə kökləyən ifadə vasitələri kompleksi.

İnsanın sağaldılmasına doğru yönəldilən dəqiq musiqi ifadə vasitələri sözsüz ki, öz intuitiv parametrlərinə malikdir. İntonasiyalı-ritmik musiqi ifadə vasitələri birinci sırada durur. Bu ifadə vasitələri aydın mənaya, semantik məzmunluğa malikdir. Musiqi ifadə vasitələrinin yalnız dərin məna dolğunluğu nəticəsində onlar müalicə vasitələrinə çevrilirlər.

Musiqi folklorunda formul adlandırılan fenomenə xüsusi diqqət yetirilmişdir. Hazırkı aspektdə onun əhəmiyyəti olduqca böyükdür.

Mədəniyyətin inkişafı, bəşəriyyət tarixində musiqi dərki əməli kommunikasiyanın ilk tərkib hissələri ilə sıx bağlı olmuşdur. İntonasiya bu baxımdan məna daşıyıcısı kimi, hazırkı kommunikasiya sisteminin əsasını təşkil edir.

Əsrlərlə təşəkkül tapan musiqi öz müalicəvi xüsusiyyətlərini formalaşdıraraq, bu prosesə bitərəf qalmamışdır. I Fəsildə göstərdiyimiz kimi, müalicəvi prosesi müşayiət edən musiqi başlanğıcı spesifik xüsusiyyətlərə malik idi. Buradan irəli gələrək, musiqinin müalicəvi proseslərə münasibətdə neytral xarakter daşıması qeyri-mümkün idi. Bizim fikrimizcə, burada musiqi ifadə vasitələrinin immanent xüsusiyyətlərindən istifadə olunmuşdur. Bu xüsusiyyətlər uzun tarixi zaman ərzində kristallaşmışdır.

Musiqinin başlıca müalicəvi aspekti olan formul fenomeni musiqi və tibb məvhumlarının kommunikativ korrelyat mərkəzində durmuşdur. Qeyd edək ki, musiqi suqqestivliyi müalicə zamanı musiqi təcrübəsinin təsiri kimi təşkil olunmuşdur. Məhz qeyd olunan cəhət aşağıdakı fikri söyləməyə imkan verir – musiqi dinləyicinin emosional-psixoloji əhval-ruhiyyəsinə uyğun gələrək, müalicəvi effektə malikdir.

Hazırkı fəsildə təhlil olunan lad-intonasiyalılıq, tipoloji cəhətdən məna ifadə edən formullarda musiqi dilinin səciyyəsi və modifikasiyası bir yerə cəmləşərək, tətbiqi funksiyalarla şərtləşdirilmişdir. Musiqili-müalicəvi proseslərdə basmaqəlib formalar model formullarının yaradıcı sintezinə söykənmişdir.

Tam cəsarətlə demək olar ki, intonasiya lüğəti, intonasiya üsulları müəyyən simvolika, məna və məzmun əmələ gətirmişdir. Yəni, söhbət burada

Azərbaycan musiqi mədəniyyət "sahə"sinin stereotiplərində yaxşı məlum olan intonasiyalardan, onların konkret funksional-tətbiqi rolundan gedir.

Formulların vacib əhəmiyyəti onların reflektor effektində ifadəsini tapmışdır. Müalicə zamanı tətbiq olunan musiqi formulları refleks və psixofiziki reaksiya əlaqələrinin mərkəzində olmağa qadirdir. Başqa sözlə desək, musiqi vasitəsi ilə müalicə zamanı bu və ya digər tipoloji model müəyyən emosional-psixoloji dərəcəli refleksə səbəb olur. Bu refleks özünün ardınca müəyyən psixofiziki reaksiyaya meyllilik oyadır, bu isə müalicəvi təsir üsullarından biridir. Beləliklə, hazırkı bölmədə söz açdığımız musiqi formulları uzun tarixi dövr ərzində bərqərar olan melodik şəkillərdən təşkil olunub. Belə formulların dövr tərəfindən "cilalanması" onların daxili quruluşunun adekvat reaksiyasının aktuallaşdırılmasına gətirib çıxarmışdır. Bununla yanaşı, intonasiya formulları yalnız etnotipoloji ifadəlilik kontekstində tətbiq olunan zaman məqsədəuyğunluq əldə edir.

İntonasiyalı-ritmik formulların semantikası tətbiqi funksiyalarla bilavasitə əlaqədə təşəkkül tapmışdır. Nəticədə melodik formullarda tipiklik semantikası cəmləşir. Məhz bu səbəbdən, Azərbaycan musiqisindəki lad formulları müəyyən funksional vəzifəyə malikdir. Onların daxilində potensial inkişaf imkanlarının bünövrəsi qoyularaq, proqramlaşdırılmışdır.

Etnomədəniyyətin konkret mühiti daxilində formalaşan və semantikaya malik olan vacib intonasiya modellərinin bir neçəsini qeyd edək:

1. Haray-çağırış motivinə bənzər, müraciət tipli intonasiya modelləri. Belə növə malik olan müraciətlərin başlıca funksiyası – dinləyicinin diqqətini özünə cəlb etməkdir.

2. Totem obrazlarını tərənnüm edən modellər. Bu modellər toy mərasimi kontekstində ayrı-ayrı insanları tərənnüm edən obrazlara paraleldir.

3. Səciyyəvi ritmik forması ilə fərqlənən yalvarış, dilək, ovsun modelləri.

Xatırladaq ki, bizim təhlillərdəki melodik formul sintaktik vahidlik ifadə edir. Meloformulların quruluşu müəyyən bir kontekstdə əhəmiyyət daşıyır. Ona görə ki, tam, bütöv xüsusiyyətə malikdir. Məhz arxetip kontekstdə formul embrionu müəyyən suqqestiv energetika daşıyır və insanlara ovsunlu-magik təsir bağışlaya bilir. Etnomədəni təcrübədə arxetiplər xüsusi müalicəvi təsir əldə etmişlər.

Qeyd olunanlardan göründüyü kimi, İkinci fəslin I bölməsində Azərbaycan musiqisinin arxetipik xüsusiyyətləri, erkən folklor intona-

siyalılığının cəhətləri təhlil olunur. Hazırkı fəsildə bizim mövqeyimizi təsdiqləyən musiqili-nəzəri ədəbiyyatlardan dəlillər gətirilir.

Erkən folklor intonasiyalılığında təkrarlığa vacib yer ayrılır. Təkrarlıq – musiqi vasitəsi kimi insan psixikasına təsir edən xüsusi gücə malikdir. Təkrarlıq erkən folklor intonasiyalılığında müalicəvi məqsədlə güclü təsir vasitəsi kimi istifadə olunmuşdur.

Təkrarlığın müalicəvi xüsusiyyəti konkret analitik səviyyədə nəzərdən keçirilir. Təkrarlığın genetik köklərinin dərəcələrə ayrılması təkrarlığın əmələ gətirdiyi impulslar ilə müəyyən olunur:

1. Psixofizioloji; 2. Tətbiqi; 3. Musiqili.

Bu bəndlərin nəzərdən keçirilməsi musiqili-mərasim suqqestiyasının formalaşmasında mühüm tərkib hissəsi olan təkrarlığın genezis və formasının tədqiqinə imkan yaradır.

Erkən folklor intonasiyalılığının musiqi spesifikliyi şübhə doğurmur. Lakin musiqi folklorunun çoxfunksiyalılığı onun tətbiqi funksiyalarının parametrlərini ciddi şəkildə dərəcələrə ayırır. Konkret etnomədəni kontekstdən irəli gələrək, ostinatolu səs təməli eynilə bu cür müxtəlif məzmuna malik ola bilər.

Təkrarlıq özünü onunla büruzə etdirir ki, ənənəvi türk xalq havalarının ifası, məsələn epik nəğmələrin melointonasiya təbəqələri həm də bir-birinə oxşayan monotonluğu ilə fərqlənir. Qəsdən müxtəliflikdən məhrum olan xalq havaları xüsusi təsir gücünə malikdir. Müxtəlif növlü ostinato nəqəratları musiqinin mərasim funksiyasının qalıqlarını təşkil edir. Bu mərasim funksiyaları müxtəlif növ təkrarlarla özünü ifadə edərək, eyni zamanda etnomədəni kontekstdə musiqinin müalicəvi və qoruyucu vəzifəsini yerinə yetirir. Məhz bu səbəbdən, musiqi folklor nümunələrinin ümumi cəhətləri içərisində təkrarlığı monotonluğun xüsusi bir növü kimi qeyd etmək olar.

Musiqidə zaman təşkili kimi ritmin rolu da tədqiq olunur. Ritm xüsusi əhəmiyyət kəsb edir. Musiqinin məhz ritmik təşkili müalicə üçün vacib olan iki xüsusiyyətin vəhdətini – ritmik aktivliyi və fizioloji proseslərin relaksasiyasını nizama salır.

Qeyd edək ki, musiqi ritmi insan psixodinamikasına daha çox adekvatdır. Əzələ gərginliyi və emosional tonusdan başqa, ritm həm də musiqi dilinin digər vasitələrini, eləcə də musiqi vəzninin semantikasını, onun assosiativ əlaqələrini gücləndirir. Təsadüfi deyil ki, musiqi mədəniyyəti tarixində müəyyən janr sistemi təşəkkül tapmışdır, burada hər bir janr yalnız ona xas əlamətlərə malik idi. Məsələn, mahnıvari, rəqsvari, marşvari janr və s.

Musiqi mədəniyyətinin məşhur intonasiya “qalıqları”na diqqət ayrılır:

1. oliqatonika; 2. ekmelika; 3. xazmatonika.

Bizim tərəfimizdən tədqiq olunan material buradakı üç komponentin varlığını vurğulamağa əsas verir. Oliqatonika strukturları daha çox maraq kəsb edir. Oliqatonika formulluq və təkrarlıqla sıx bağlıdır. Məsələn, oliqatonikada dayaq tonları ostinatoluluq, pillələrin dəfələrlə təkrar olunan səsətrafı gəzişmələri vasitəsi ilə ifadəsini tapır. Hazırkı dissertasiyada oliqatonikanın tədqiqi zamanı biz musiqi və tibb arasındakı tarixi əlaqələrə dair öz təsəvvürlərimizi nəinki dərinləşdirir, eyni zamanda musiqinin suqqestiv imkanlarını da əsaslandırırıq. Paralel olaraq biz Azərbaycan musiqisinin lad sisteminin təşəkkül məsələlərinə, eləcə də onun türk dünyasının musiqi mədəniyyəti ilə sıx əlaqələrinə də aydınlıq gətiririk. Ona görə ki, Azərbaycan lad sisteminin əsasını nəinki tetraxord strukturu, həmçinin tersiya və sekunda quruluşu təşkil edir. Onlar lad mənasına malikdirlər və özünü pillələrin funksional əlaqəsi ilə ifadə edirlər.

Tembrin əhəmiyyətindən söz açarkən, hazırkı fəsildə bu aspektə daxil olan bir sıra tərkib hissələri, məsələn, temp, registr, artikulyasiya və s. qeyd olunur. Burada diqqət həmçinin Azərbaycan xalq musiqisinin ayrı-ayrı janrlarının spesifikasında cəmləşdirilmişdir. Onların tədqiqi İkinci fəslin II yarımfəslində yerinə yetirilmişdir.

**2.2. “Azərbaycan musiqi folklor nümunələrinin analitik tipologiyasında tətbiqi və suqqestiv funksiyaların korrelyasiyası”** adlanır. Burada musiqi və tibbin bir-biri ilə münasibətində həlledici əhəmiyyət daşıyan Azərbaycan musiqi folklor nümunələri əsasında dissertasiyada əksini tapmış musiqi ifadə vasitələrinin nisbəti tədqiq edilir. Folklor təcrübəsində müəyyən məna kəsb edən və hər bir ayrıca vəziyyətdə konkret emosional çalarlar kimi formalaşan intonasiya tipləri təhlil olunur. Onlar məntiqi cəhətdən bitkin və qısa melodik ibarələr şəklində yetişərək, möhkəmlənmiş və qədim folklor ənənələrində əksini tapan yeganə musiqi formasına çevrilmişlər.

Hazırkı yarımfəsildə əmək mahnı nümunələri tədqiq olunur. Məsələn, “Xirmən” mahnısı, “Nəhrə” mahnısı və s. “Xirmən” mahnısı xalq havasının təşkil prinsipi özünəməxsusdur.

Azərbaycan əmək mahnıları içərisində “Çobanın reçitativi”nə xüsusi yer ayrılmışdır. Müxtəlif metr quruluşu və bənzər intonasiya şəklinə malik bu xalq havası improvizə xarakterli musiqi ibarələrindən təşkil olunmuşdur. Mahnının dar həcmli lad strukturu aşağı hərəkətlə yuxarı hərəkətin “des – ces – b – as – b” mərkəzinin dayaq pərdəsində növbələşməsi ilə mürəkkəbləşir.

Nəticədə “çağırış” intonasiyalarının parlaq ifadəli melodik şəklə malik olan və sehrli ovsun semantikası yaradan səsətrafı gəzişmə formulu əmələ gəlir.

Təhlil olunan el nəğmələrində Azərbaycan musiqi folklorunun milli-spesifik xüsusiyyətləri vurğulanmışdır.

Tədqiq etdiyimiz Azərbaycan musiqi folklor nümunələrinin melodikasını aşağıdakı xüsusiyyətlər səciyyələndirir: böyük tersiya intervalını nəzərə çarpdıran kvarta diapazonu, dayaq pilləsinin dəyişkənliyi, səssırasının tersiyasından aşağıya doğru, I pilləyə sanki “dartılması” buna misaldır. Səs yüksəkliyinin təşkil spesifikası sabit pillə ətrafında “dairəvi” hərəkətlərlə müəyyən olunur. Məsələn, “Biçinçiyəm” mahnısının melodik başlanğıcında intonasiya hərəkətinin axıcılığı, səsətrafı motivlərin üstünlük təşkil etməsi, dayaq tonu ətrafında qruplaşan köməkçi səslərin mövcudluğu xüsusi çeviklik bəxş edir. Nəğmənin lad-intonasiya inkişafı variantlı sekvensiyanın tətbiqi ilə dayaq pillələrinin aşağıya doğru özünəməxsus yerdəyişmələrindən təşkil olunub. Əmək mahnılarında musiqili-nitq və hərəkət dinamikasının vəhdəti onların əmək prosesi ilə bağlılığı və tətbiqi funksiyasından bəhs edir.

Bəzi Azərbaycan əmək mahnıları vardır ki, rəqslərin müşayiəti altında, kollektiv şəkildə ifa olunur. Tarixçi və etnoqrafların qeyd etdiyi kimi, ovsunlu-magik rəqs bütün ayin iştirakçılarının ictimai tərbiyə vasitəsi olmuşdur – buraya fiziki, professional və estetik tərbiyə daxildir. “Həsiri basma, dolan gəl” mahnısı nümunə kimi təhlilə cəlb olunmuşdur.

Musiqi və tibb əlaqələrinin öyrənilməsində mövsümlə, insan həyatının ayrı-ayrı mərhələləri ilə bağlı olan mərasim mahnı və rəqslərinə xüsusi yer ayrılır. İnsanın psixi və psixoloji sağlamlığını nizama salmağa qadir olan mərasim folklorunun yüksək profilaktik potensialı mütəxəssislər tərəfindən qeyd olunmuşdur. Mərasim ayininin yaradıcı şəkildə canlandırılması zamanı insan öz sələflərinin folklor janrlarının sabit “formulları”nda cəmləşmiş emosional təcrübəsini təbii şəkildə yaşamışdır.

Mərasim musiqisi etnik kollektivə xüsusi təsir edən vasitələri özündə cəm edir. Azərbaycanda yazın gəlişi, təbiətin oyanması, günəşin doğması, ağacların çiçəklənməsinə dair çoxlu sayda qədim mahnılar mövcuddur. Onlardan bir çoxu müxtəlif mərasimlərlə müşayiət olunan müqəddəs Novruz bayramı ilə bağlıdır. Bu bayram günləri səslənən mahnılar təbiət qüvvələrinə müraciət, çağırış xarakteri daşıyaraq, özündə oyun və rəqs, teatrlaşdırılmış tamaşa elementləri cəm edirdi. Məsələn, günəşə müraciət - “Gün, çıx” mahnısında əksini tapmışdır.

Dissertasiyada ortaya qoyulan məsələlərin tədqiqi zamanı biz səyyar şəraitdə topladığımız yazılara əsaslanmışıq. Bu yazılar həmçinin, hazırkı bölmədə təqdim olunur. Qeyd edilir ki, mərasim musiqisində bir tembr-registr hüdudları daxilində iki-üç dar həcmli quruluşlara tez-tez təsadüf olunur. Belə dar həcmli melodiyalarda səs tonunun yüksəkliyi “zona təbiəti” ilə fərqlənir və təkrarlar zamanı təkamül edir, bu isə yeni tonallığa gətirib çıxarır. Bu zaman melodiyanın bəzi səslərində yüksəklik dəyişiklikləri baş verə bilər: intonasiya xəttinin rəvan axarını pozan güclü və iti sıçrayışlar buna misaldır. Nəticədə səslərin yüksəklik dəyişiklikləri vokal səsin registrinə qarşı qoyulur və tembr ziddiyyəti ilə tamamlanır.

Tamaşa, oyun və mərasimlər Azərbaycan xalqının həyatını hələ qədimdən müşayiət etmiş, həm insanın ətraf aləmə olan münasibətini, həm də insanın bu aləmin tərkib hissəsi kimi sabit obrazını möhkəmləndirmişdir. İnsan oxuyub, ritmik şəkildə hərəkət edərək, icra olunan ayinə və onun məzmununa bütövlüklə nüfuz edirdi. Kollektiv surətdə, birgə yerinə yetirilən ayinin estetik həyəcanı baş verənlərin dərk olunmasını daha da gücləndirirdi. Xalq tamaşaları, yallı xalq oyunu öz ritmi etibarilə “fizioloji”dir və normal sağlam nəbzə tam uyğun gəlir. Aydın və işıqlı, asanlıqla yadda qalan melodik hərəkətlər isə qulağayatımlı olub, həyat tonusunu qaldırır, əhval-ruhiyyəni tarazlaşdırır və qavrayışın müsbət emosional tonunu təmin edir.

Dissertasiya işində Novruz bayramı zamanı səslənən musiqi nümunələri təhlil olunur. Yallı xalq oyunlarının əhəmiyyəti vurğulanır. Yallı – qədim xalq təcrübəsi, unikal psixotexnikadır, insan üçün güclü saflaşdırıcı effektə malikdir. Yallı xalq oyunlarının terapiya əhəmiyyətini bizim əcdadlarımız yüksək qiymətləndirmişlər. Məsələn, şaman ayin təcrübəsində xəstələnən şəxs müalicə zamanı rəqs edən qrupun hökmən mərkəzində dururdu. Proses iştirakçıları onun ətrafına toplaşırdılar və bütün ayin qapalı dairə şəklində icra olunurdu. Dairəvi dövr vurmaya, hərlənməyə, xəstəyə təsir etmək məqsədi ilə onun dövrələnməsinə böyük əhəmiyyət verilirdi. Dairəvi yallı terapiya funksiyası daşıyırdı ki, bu da ümumilikdə, kütləvi rəqsin psixofiziki xüsusiyyəti idi.

Məkan rəmzi olan dairə, qədim totem ayinlərində xüsusilə geniş yayılmışdı. Belə ayinlərin dairə şəklində qurulması vacib magik təsirə malik olub, hələ qədimdə məhsuldarlıqla bağlı Günəş kultunun formalaşmasına qədər icra olunan mühüm ayin idi.

Mütəxəssislərin fikrincə, yallı xalq oyunlarının qədim insana müalicəvi təsiri ondan ibarət idi ki, ritmik bədən hərəkətlərinin sinsxron

şəklində yerinə yetirilməsi hər bir individuumun enerjisini nizama salmağa, eyni zamanda yeni kollektiv güc əmələ gətirməyə imkan verirdi ki, bu da effektiv psixoterapiya vasitəsi kimi tətbiq olunurdu. Psixi-əsəb xəstəlikləri üçün bu vasitə icmanın həyatında vacib funksiya daşıyırdı. İcmanın müalicəvi rəqsləri 3-4 ay davam edə bilərdi, onun sonuna doğru bütün kəndin güzəranı elə bil xüsusi "terapevt rejimi"ndə keçirdi. Yüksək inandırma qabiliyyətinə malik olan şəfaverici təbib, kollektivin qüvvəsini xəstələnən şəxsin əziyyət çəkdiyi xəstəliyin sağalmasına yönəldirdi.

Ayin mərasimində hər bir vasitənin qəbul edilməsi vacib idi, çünki bu vasitələr orqanizmi müəyyən ritmdə çalışmağa vadar edərək, onu elə bir əhvala çatdırırdı ki, bu da onun psixofiziki gücünün hər hansı ayrı bir energetik sistemə təsiri ilə nəticələnirdi və istənilən effekti əmələ gətirirdi. Ayinin mühüm keyfiyyətlərindən biri də sinkretiklik idi, yəni müxtəlif sənət növlərinin bölünməzliyi mənasını daşıyırdı. Odur ki, ritmik-mahnıvari müşayiətə malik yallı xalq oyunları insana tam, inteqrasiyalı təsir göstərirdi.

Hazırkı bölmədə qeyd olunur ki, intonasiya formullarının bütün zənginliyi və stereotipliyi insanın bütün həyat mərhələləri boyu müşayiət edən simvolik-işarə gerçəkliyində yerləşdirilmişdir. Azərbaycanda toy mərasimlərinin keçirilməsi zamanı mahnı və rəqs müxtəlifliyi bu mənada diqqəti cəlb edir.

Toy mərasiminin repertuarı folklor janrının mərasimdən tutmuş, lirik mahnı və süfrə başında oxunan təranələrə qədər bütün spektrini özündə cəm edirdi. Toy mahnılarında ifaçının səsinin gözəlliyi, musiqi məzmununun poetikliyinə xüsusi münasibət göstərilirdi. Toy mərasimində etik əxlaq və davranışlara aid xüsusi nitq söylənilirdi. İnsan tərəfindən ənənəvi mədəniyyətin mənəvi dəyərlər sisteminə müraciəti daxili istinadgahın əldə olunmasına və əvvəlki nəsillərlə əlaqənin dərk edilməsinə imkan yaradırdı.

Ana folkloru da təhlilə cəlb olunur. Çünki Azərbaycan xalq mədəniyyətinin geniş təbəqəsi uşaqların sağlam psixofiziki inkişafına yönəldilmişdir. Uşaq folkloruna beşik nəğmələri, "laylay", oyun-"oxşama"lar və "bəsləmələr", eləcə də təbiət və heyvanat aləmi ilə bağlı məişət mahnıları daxildir. Körpənin böyüklərlə ünsiyyəti onun psixi və fiziki inkişafına, emosional firavanlığına təsir edir. Laylalar - uşaq həyatında təsadüf olunan ilk mahnılardır. Laylalar - yırğalama motivi ilə bağlıdır. Onların meydana gəlməsinin başlıca səbəbi uşağın şirin yuxuya qərq olmasında ananın bilavasitə iştirakından ibarətdir. Laylaların bütün musiqi ifadə vasitələri körpəni rahatlayıb onu yatırtmağa, onun emosional gərginliyini aradan qaldırmağa, tənəffüsünü tarazlaşdırmağa və ürək ritmini nizama salmağa tabe edilir.

Laylalar yavaş səslə, astadan, monoton şəklində oxunur, çünki ifa özü-özlüyündə körpəyə lay-lay çalıb, yatırtmalıdır. Sözləri başa düşməyən körpə, həyatının ilk mərhələsində səsin yalnız akustik xüsusiyyətlərini - tembr, dinamika, ritmi, səsin intonasiyasını ayırd edə bilir. Laylanın oxunması hipnoza bənzərdir, onda mövcud olan monoton özəklərinin təkrarları isə "yırğalama" təəssüratı yaradır.

Səyyar şəraitində aparılan tədqiqat prosesində Azərbaycan uşaq folkloru toplanılmışdır, bunların arasında lay-lay mahnısı da özünə yer almışdır. Yuxarıda təhlil olunan beşik nəğməsindən fərqli olaraq, hazırkı mahnının melodik quruluşu bir qədər fərqli xarakterdədir. Səslərin ardıcıllığı böyük sekunda və kiçik tersiyanın aşağıya doğru hərəkətindən təşkil olunmuş üçxord əmələ gətirir. Hazırkı havanın səciyyəvi xüsusiyyətini iki səs yüksəkliyinin təzadlı-registr qarşılaşdırılması təşkil edir. Onlar punktir şəklin növbələşməsi nəticəsində beşik yırğalanması illüziyasını yaradır. Bu nümunədə beşik mahnısı qəm-kəm ayinlərində icra olunan hava ilə müqayisə edilir. İki nümunə arasındakı identiklik punktir-ritmik təqtidə, yekun dayaq nöqtəsinə doğru yönələn aşağı istiqamətli melodik intonasiyada özünü ifadə edir.

İnsan tərəfindən mənimsənilən səs məkanı, intonasiyalı arxetiplər bizim tərəfimizdən sehrli, sakral təzahür kimi şərh olunur, kontekstindən asılı olaraq onlar müalicəvi-prafilaktik, qoruyucu-mühafizəedici funksiya daşıya bilir. Azərbaycan etnik mədəniyyətində əhəmiyyət daşıyan ayinlərdəki çağırış və mədhnamə oxumalarının intonasiya modelləri, ağı və yalvarışlar, monoton ovsunlar və dairəvi "hərlənmələr" hazırki bölmədə nəzərdən keçirilir.

**III Fəsil - "Musiqi və tibb əlaqələri mədəni-tipoloji təzahür kimi"** adlanır. **3.1. "Musiqi və tibb əlaqələrinin etnomədəni əsasları"** adına malikdir. Hazırkı bölmədə bəzi nəzəri əsaslar gözdən keçirilir ki, bu da araşdırılan mövzunu mədəni-tipoloji planda nəzərdən keçirməyə imkan yaradır. İlk növbədə, musiqi və tibb əlaqələri məsələsinə dair Orta əsr Azərbaycan ədəbi yazı mədəniyyətinə istinad olunaraq, bəzi nümunələrə nəzər yetirilir. O dövrün yazı mədəniyyəti universal, ensiklopedik biliklərin müəyyən modelləri ilə səciyyələnir. Qeyd etmək kifayətdir ki, mükəmməl musiqi təhsili musiqi elminin, ifaçılığın, musiqili-poetik formaların dərindən öyrənilməsinə əsaslanırdı. Orta əsr risalələri o dövrün fəlsəfəsi və bədii konsepsiyalarını cəm edirdi. Orta əsr ədəbi yazıları təkcə dövrü səciyyələndirən tarixi mənbələr deyildi. Risalələrdə müxtəlif elm və bilik

sahələrinin qarşılıqlı əlaqələri əksini tapırdı. Musiqi və tibb əlaqələrinə dair maraqlı informasiyanı Orta əsr müəlliflərinin əlyazmalarında təsadüf edirik.

Alim-mütəfəkkirlərin fəaliyyəti elmin müəyyən sahələrinə söykənirdi. Vahid problem aspekti təşkil edən musiqi və tibb sahələri də buraya daxil idi. Bu aspekt də həmçinin, özünün tamlığı, başlıca elmi determinantlarının qarşılıqlı korrelyasiyası ilə fərqlənirdi. Burada musiqi ilə tibb sahələrinin müqayisəli təhlilinə əsaslanan müəyyən metodoloji sintezdən bəhs etmək olar.

Qeyd etmək lazımdır ki, Orta əsr müəlliflərinin risalələrində əksini tapan musiqi və tibb korrelyasiyalarının sistemli paralelizmi qanunauyğun, məqsədyönlü xarakter daşıyırdı və bu cəhət Azərbaycan tarixində Orta əsr mədəniyyəti kontekstinin spesifikası ilə şərtləşdirilirdi. Ümumilikdə, musiqinin ecazkar gücü Orta əsr cəmiyyətinin bir çox sahələrinə öz təsirini göstərmişdir.

Qeyd etdiyimiz kimi, Orta əsr mütəfəkkirlərinin musiqiyə dair risalələrində musiqi yolu ilə müalicənin kökləri mifoloji və etnomədəni təfəkkürə söykənir.

Yerinə yetirdiyimiz analitik tədqiqat prosesində biz belə bir qənaətə gəlirik ki, etnomədəniyyət kontekstində müalicəvi fəaliyyət Azərbaycan tarixinin nisbətən gec dövrünə – Orta əsrlərə təsadüf edir. O dövrdə görünən və görünməyən aləm arasındakı rabitə, ikili idrak haqqında identik təsəvvürlər mövcud idi. Məsələn, magik fəaliyyət zamanı bu cəhət musiqinin sakral şərhində, varlıq və mistikliyin bir-birinə sarmaşmasında ifadə olunurdu. Orta əsrin təbib və mütəfəkkirlərinin şüurundakı ikili idrak əsasən kosmoloji təsəvvürlər çərçivəsində səs və fikrin korrelyasiyası funksiyasını daşıyırdı.

Orta əsr risalələrində musiqili-kosmoqonik nəzəriyyə elmi cəhətdən əsaslandırılmışdır. Hazırkı təzahür təsadüfi xarakter daşımırdı, çünki bu qəbildən olan nəzəriyyələr yunan, şumer-babil və misir, hind və çin mədəniyyətlərindən məlum idi. Müsəlman-ərəb müəlliflərindən bir çoxu öz risalələrində Pifaqorun “İlahi musiqi nəzəriyyəsi”nə əsaslanırdılar.

Azərbaycan tarixinin Orta əsrinə aid kontekstli təhlili, etnomədəniyyət strukturunun tam korrelyasiyası olmadan musiqinin insan orqanizminə təsirinin mahiyyətini, müalicəvi spesifikasını dərk etmək qeyri-mümkündür. Odur ki, biz nəzərimizi tədqiqatın növbəti aspektlərinə yönəldirik.

Musiqinin müalicəvi əhəmiyyətinin başlıca cəhətləri aşağıdakılardan ibarətdir:

1. Depressiya kimi xəstəlikdən qoruyan pozitiv əhval-ruhiyyə;
2. Musiqinin müsbət tərbiyəvi funksiyaları, bu da həmçinin insan sağlamlığına öz təsirini göstərir;

3. Emosional qeyri-sabitliyin əksi olan emosional müvazinət, tarazlıq;
4. Mənəvi - əxlaqi cəhətdən saflıq, insanın sağlam harmonik inkişafı.

Qeyd olunanlardan irəli gələrək dörd əsas ünsürdən bəhs olunan məşhur nəzəriyyə gözdən keçirilmişdir. Onlar Orta əsr insanının bütün mikrodünyasını ifadə etməklə yanaşı, etnomədəniyyət ilə əlaqələri parlaq təcəssüm etdirirdi. İnsan emosiyalarına, onun təbii, cismani və fizioloji əsasına müvafiq olan ilkin səs təsəvvürləri, lad, forma, ritm də buraya daxil idi. Azərbaycan mədəniyyəti kontekstində bu müvafiqlik sanballı, fundamental olmuş və Azərbaycan alimlərinin sonrakı elmi əsərlərində öz əksini tapmışdır.

Musiqinin müalicəvi məqsədlə istifadəsi genetik cəhətdən şərtləşdirilmişdir. Ədəbi yazılardan bəhs edərkən qeyd olunmalıdır ki, Yaxın və Orta Şərqin tarixi inkişafının ümumi tipoloji, universal qanunauyğunluqları hər bir ərazidə öz spesifik xüsusiyyətlərini əldə etmişdir. Azərbaycan mədəniyyətində bu cəhət etnomədəniyyətin böyük təsiri ilə şərtləşdirilmişdir.

Hazırkı bölmədə həmçinin sufizmin etnogenetik əsasları da tədqiq olunur. Məsələn, şamanlar və sufilər arasında paralellər aparılır. Məhz musiqinin köməyi ilə həm şamanlar, həm də sufilər ekstaz vəziyyətinə düşürdülər. Vəcdə gələrək ekstaz halına çatmaq musiqi ilə bərabər, şəfavericiliklə məşğul olan insanların müalicəvi vasitələrinin əsas tərkib hissəsi idi.

Musiqi şərqşünaslığında şaman oxumalarından sufi "zikr"lərinə doğru bir yol uzanır. Bu varislik əlaqələri əsasən sufi "çor-zərb"lərində, sonralar isə Orta əsrin şifahi ənənəli professional musiqi ənənələrinə əsaslanan muğam sənətində özünü göstərir. Maraqlıdır ki, sufilər sağlamlıq və xəstəliyi musiqi ilə müqayisə edirdilər. Müqayisənin mahiyyəti ondan ibarət idi ki, insan vücudunda vibrasiya edən sağlamlıq harmonik səslərin sintezi kimi qavranılırdı. Məhz harmonik cəhətdən düzgün həyat tonusu insan sağlamlığının qorunmasına imkan verir. Sağlamlıq yaxşı köklənmiş musiqi alətinə bənzədilirdi. Sufilər düzgün ritm və hərəkəti həyatverici, fəaliyyətgətirici hesab etmişlər.

Lad-intonasiya formulunun suqqestiv gücü Orta əsr dövründə özünü parlaq ifadə etmişdir. Bu, əsasən sufi təcrübəsində özünü göstərən məşhur formullardır. Məsələn, aydın intonasiya ilə oxunmuş məşhur sufi formulları mövcud idi – "yak zərb", "du zərb", " se zərb", "çor zərb" və s.

**3.2. "Azərbaycan mədəniyyət tarixində musiqi və tibb əlaqələrinin xüsusiyyətləri"** adlanır və yekunlaşdırıcı xarakter daşıyır. Bölmədə Azərbaycan tarixində musiqi və tibb əlaqələrinin etnomədəni modellərinin dolğunluğu, onların məna çalarları və atributları tutuşduraraq, elementlərin identikliyini vurğulanır.

Musiqi təsirinin semantik funksiyası özünü musiqi dil xüsusiyyətləri vasitəsilə göstərir. Parlaq semantik tərzdə əksini tapmış musiqi-ifadə vasitələri mövcuddur. Bu ifadə vasitələrinin formul səviyyəsi bəşəriyyətin ən qədim çağlarından etibarən bilavasitə təsirə malik olmuşdur. Bu vasitələr onların tətbiqi funksiyası ilə bağlı olaraq dərəcələrə ayrılmışdır. Məsələn, musiqinin müalicəvi vasitələri musiqinin yalnız xüsusi mədəni səviyyəsinin bilavasitə spesifikliyi ilə deyil, eyni zamanda bu və ya digər kontekstdə qavranılma xüsusiyyətləri ilə bağlıdır.

Musiqinin müalicəvi xüsusiyyətləri ilk növbədə, müəyyən kommunikasiya vasitələrində cəmləşmişdir. Bu isə musiqi-ifadə vasitələrinin təsir gücü ilə bilavasitə bağlıdır. Bu mənada musiqi simvolikasının rolunu qeyd etmək olar. Musiqi simvolikası konkret situasiya "dairə"si şəraitində müalicəvi xüsusiyyətlər əldə edir. Bu mənada musiqinin insana göstərdiyi müalicəvi təsirinin gücü və aydınlığı bilavasitə musiqinin xüsusi keyfiyyəti ilə bağlıdır. Musiqi vasitəsilə müəyyən parametrlərin insana təsir gücü tam vasitələr kompleksi ilə stimullaşır. Müasir tibb elmində insanın səs vasitəsilə müalicəsi üçün xüsusi təsir üsulları təkmilləşdirilmişdir. Məsələn:

1. semantik əhəmiyyətə malik olan məşhur musiqi formullarının istifadəsi;
2. dinamika və statikanın növbələşmə modelinə dayaqlanma;
3. mifoloji şüur səviyyəsində hərəkətdə olan məntiqi vurğuların düzülüşü;
4. sehrli ovsun ayinlərindən əldə olunmuş biliklər əsasında müalicənin şərtləndirilməsi;
5. gərginliyin dərki və aradan qaldırılmasının müəyyən sistemi.

Musiqinin estetik və müalicəvi funksiyası bir-biri ilə sıx bağlıdır. Estetik tərkib hissələrinin iyerarxiyası burada olduqca vacib rol oynayır.

İnsana təsir edən mühüm psixoloji təməlin modelləşdirilməsi musiqi dilinin praformullarının musiqi ifadə dairəsinin əsasını təşkil edir. İnsanın bu və ya digər emosional əhvalını ifadə edən basmaqəliblər, formullar və stereotiplər sistemi mövcuddur. Ona görə ki, səs və şüur arasında tənzimçi yerləşir və bu nizamlayıcı, şüurdakı bu və ya digər vektorları istiqamətləndirir. Etnomədəni mühitdə təbiblərin musiqili-tarixi fəaliyyəti birmənalı şərtləndirilirdi. "Bu fəaliyyət hansı kommunikatlardan təşkil olunub və sonralar tarixin hansı dövrlərinə nə dərəcədə təsir edib?" sualına cavab olaraq qeyd edək ki, təkcə müalicəvi əhəmiyyət daşıyan qüvvələr deyil, həm də milli səciyyəyə malik olan və prioritetlər kimi qiymətləndirilən ənənələr bunu sübut edir.

Azərbaycan mədəniyyəti tarixinin çoxsaylı faktları isbatlayır ki, Azərbaycan tarixinin Orta əsrlər dövrünə aid təsəvvürləri ilə etnomədəni təsəvvürlər arasında genetik əlaqələr mövcuddur. Məsələn, musiqi ilə müalicə müəyyən assosiativ "dairələr"in yaradılması ilə müşayiət olunur. Buraya təbii və həyati situasiyalar, obrazlar, davranış qaydaları daxildir.

Gözlə görünən və görünməyən əlaqələrin əmələ gətirdiyi şüur ikiləşməsi məhz belə bir kontinuumda cəmləşmişdir və bu, etnomədəniyyətin başlıca müalicə vasitəsi olmuşdur. Həqiqətən də, bəşəriyyətin erkən çağlarında, qədim dövrlərdə xəstəlik ilk növbədə, insanın daxilinə girən "şər ruhlarla" assosiasiya doğururdu. Magiyadan, sehrli ovsunlardan müalicə vasitəsi kimi istifadə olunurdu. Musiqi burada əhəmiyyətli rol oynayırdı.

Etnomədəniyyətdə musiqi ilə müalicə determinantları ən çox təsir rejiminin yüksək fəallığı ilə bağlı olmuşdur. Məsələn, "şər ruhların" qovulmasından ötrü keçirilən mərasim təcrübəsində qavrayışın aktivləşməsi tələb olunurdu. Bunun üçün müəyyən musiqi-ifadə vasitələri tətbiq edilirdi. Musiqinin bədii qanunauyğunluqları ilə bağlı Orta əsr nəzəri konsepsiyalarında musiqinin müalicəvi xüsusiyyətlərinin müəyyən təsnifat prinsiplərinə söykənməsi təsdiqini tapmışdır. Məsələn:

1. musiqinin maddi-konstruktiv xüsusiyyətləri;
2. musiqi işarələrinin mənası;
3. xüsusi əlaqə növləri, musiqi işarələrinin korrelyasiyası və onların mənası;
4. musiqidə tətbiqi sahə

Etnomədəni təsəvvürlərlə eyniyyət təşkil edən identik yanaşmaya diqqət yetirək. Burada qeyd etməliyik ki, etnomədəniyyətin əsas dünyabaxışı, onun özünəməxsus "fəlsəfəsi", etnik kollektiv üzvlərinin təbiəti Orta əsrlər dövrü üçün müalicə prosesinin başlıca varislik yolu olmuşdur.

İndeks-işarələr formul-model yığınıdır. Onlar tipoloji məna ifadə edən basmaqəlib statusuna malik olmuşlar. Nəhayət, ikona işarələri deyərkən, biz qeybdən xəbər verən insanı nəzərdə tuturuq, çünki bütün subyektiv təsir gücü onda cəmləşir və ondan təkan alır.

Məhz mədəni-tipoloji əlaqələrdən irəli gələrək biz sübut etməyə çalışırıq ki, magik müalicənin priotetləri Azərbaycan tarixinin nisbətən sonrakı mərhələlərində də mühafizə olunmuşdur.

Xalq təbiblərinin musiqi qabiliyyəti məşhur ovsunlu-magik genotiplərə əsaslanır, onlar düzgün qavrama assosiasiyasına malik olmuşlar. Musiqi modelləri dramaturji cəhətdən elə düzülür ki, dinləyiciyə maksimal təsir göstərə bilsin. Buna müvafiq olaraq, nisbətən sonrakı tarixi dövrə aid

olan və musiqinin köməyi ilə aparılan müalicəvi proseslər yalnız xalq mədəniyyətində formalaşmış musiqi və müalicəvi təsir gücünün müəyyən korrelyasiyası zamanı təsirli olmuşdur. Sözsüz ki, etnomədəni kontekstdə etnik kollektiv üçün ən "anlaşılan" məqam erkən folklor intonasiyalılığı olmuşdur. Ona görə ki, digər məqamlarla yanaşı, erkən folklor intonasiyalılığı həmin mühitdə yaxşı bəlli olan müəyyən siqnallardan təşkil olunmuşdu.

Bu cəhət xalq yaddaşında əsrlər boyu yaşayır. Məhz bu səbəbdən musiqinin təkcə mövcud müalicəvi əhəmiyyətini deyil, həm də mədəniyyət tarixinin müxtəlif mərhələlərində musiqi və tibb əlaqələrinin korrelyasiya xüsusiyyətlərini də qeyd etməliyik.

**Nəticədə** dissertasiyanın başlıca yekunları ifadə olunur.

**Dissertasiyanın elmi nəticələri aşağıdakı nəşrlərdə öz əksini tapmışdır:**


1. О некоторых аспектах лечебного воздействия музыки в истории культуры Азербайджана.// "Mədəniyyət dünyası" elmi-nəzəri məcmuə, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, XXVIII buraxılış, Bakı, 2014, 104-110 s.

2. Musiqi və tibb əlaqələrin öyrənilməsinə dair.//"Memarlıq, şəhərsalma tarixi və bərpası". Elmi məqalələr toplusu. № 1(9), Bakı-2015, s. 186-190

3. Об универсалиях связи музыки и медицины в историческом пространстве культур. "Поиск", Научный журнал-приложение Международного научно-педагогического журнала "Высшая школа Казахстана", №4/2015, с. 114-118

4. О выразительности ритма в контексте этнокультуры.// "Проблемы изучения музыкальной культуры тюркских народов", Материалы XIV международной научно-практической конференции, Баку, 2015, с.25-27

5. О специфики лечебной магии в этнокультуре Азербайджана.// Материалы II Международной научно-практической конференции, Пятигорск, 2015 , с. 250-253

6. Детерминанты связей музыки и медицины в этнокультуре азербайджанского народа. // "Harmony", международный музыкальный культурологический журнал, №14/2015 http://harmony.musigi-dunya.az

7. Об универсалиях связи музыки и медицины в историческом пространстве культуры. // «Ученые записки» №20, Азербайджанский

Государственный Университет Культуры и Искусства, Баку, 2015, с.115-120.

8. О связях музыки и медицины в контексте средневековой культуры. // “Musiqi dünyası” Beynəlxalq Elmi musiqi jurnalı, №2, 2016, s. 29-41

**Azar Firudin Shahbazov**

# Study aspects of musical and medical relations on the basis of musical folklore of Azerbaijan

## SUMMARY

Dissertation on the topic "Study aspects of musical and medical relations on the basis of musical analysis of Azerbaijan folklore" consists of three chapter, six paragraphs, introduction, conclusion, list of literature and note attac. Dissertation is devoted to research of musical perception characters in the context of ethnoculture and to discover its determinant principles.Actuality of the topic, its goals and tasks, novation of research, experimental essence is expressed in Introduction, summary of scientific literature is provided on the topic. First chapter "Research problems of the relations between music and medicine in ethnoculture of Azerbaijan nation" consists of two paragraphs.

First paragraph "Determinats in music and medicine in ethnoculture of Azerbaijan nation" applied musical-practical functions are examined in formation of peculiar characters of musical conception. It is noted that these functions play important role in treatment of ethnic collective members.Structure of musical concept is distinguished into three level in this paragraph: emotional-psychologic level, level of healing effect of music, associative context level of activation of musical concept. It is noted in the second paragraph "Ethnocultural parallels of healing possibilities of music in turkish world" of first chapter idea on characters of relations of music and medicine in Azerbaijan culture deepens while comparisson of genetic reconstruction of ancient turkish concept. It is shown that mythological motives, symbols, ritual topics, ritual models have similar status.

Second chapter - "Role of expression means of early folklore performance in treatment in the context of ethnoculture". Theoretical basis of musical language, possesing healing effect, hypnosis effect to human body are determined in the first paragraph "Essence of universal definitions through musical expression in determination of music and medical relations". Among them, we can show especially importance of initial position-intonation core, peculiar character of archetype, characters of melodic "index" intonation models. Equivalence of expressional musical means,

possesing weightful essence in relation between music and medicine on the basis of the material of musical folklore of Azerbaijan is analyzed in the second paragraph "Analysis typology of applied and hypnosis functions of musical folklore specimens of Azerbaijan" of second chapter.Labour, cradle songs, child folklore specimens, event, chorus songs are analyzed. Opinion is stated in analysis that defined intonation archetypes carry out event, amazing functions, possessing defense, creative and treatment-preventive parameters.

Third chapter - "Relations between music and medicine as cultural-typologic event". Research of relations between music and medicine in written culture is principle vector in first paragraph "Ethnocultural principles in the context of written cultural context of relations between music and medicine" - lays on ethnocultural process. It is defined equality of healing effect of music in ethnoculture and written culture in analytic research process in first paragraph of third chapter. Similarities covers ambuigity of conscise, special relations of visional and unknown world, relations between existence and indefinity, imagination of cosmologic principles of world vision. Comparative analysis of sign and moral essence of music and medicine relations in various stages of the history of Azerbaijan, volumable models of ethnoculture is carried out in the second paragraph "Characters of relations between music and medicine in cultural history of Azerbaijan" of third chapter. It is noted that semantic functions reflect themselves through musical language of semantic functions in musical effect. Formula level of these means, levelling history of Azerbaijan up to the next stages after ethnoculture is defined.

Results are made in conclusion.

Çapa imzalanıb: 17.02.2016.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru